Günəş Şərqdən doğur!

№ 123 (5404), 2021-ci il

Qiymət 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 14 iyul 2021-ci il (çərşənbə)



## 3 gün qaldı

Valideynlər iyulun 16-dək apellyasiya müraciəti edə bilərlər

(Səh.2)



## Şuşa ilə bağlı "nota oyunu"

XİN: Ermənistan hələ də beynəlxalq hüquqa zidd olan və ərazi iddialarından çıxış edən mövqe sərgiləyir

**Ermənistan Xarici İşlər Nazirliyinin iyulun 9-da Azərbaycanda akkreditə olunan ölkələrin səfirlərinin Şuşa şəhərinə səfəri ilə əlaqədarı Ermənistandakı xarici ölkələrin diplomatik nümayəndəliklərinə nota təqdim etməsi ilə bağlı məlumat yayılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla bağlı fikirlərini bölüşüb.

(səh.2)

# Artıq Azərbaycanda

## 31 nəfərdə "Delta" ştammı aşkarlandı

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə açıqlama yayıb.**

***Açıqlamada deyilir:***

"Bir ildən uzun müddətdir davam edən SARS-CoV-2 pandemiyası bütün dünyada mühüm səhiyyə problemi olmaqla birlikdə sosial və iqtisadi cəhətdən də ciddi çətinliklər yaratmaqdadır.



(səh.9)

# Siyasilər Jirinovskini bu dəfə haqlı saydılar

**Yoldan ötən təsadüfi adamların parlamentə düşməsi fəlakətdir**

Hər zaman qalmaqallı açıqlamalarla gündəmə gələn Rusiya Lideral Demokrat Partiyasının lideri Vladimir Jirinovski "Komsomolskaya Pravda" radiosunun efirində Dövlət Dumasında (parlamentdə) kosmonavtların, rəssamların, şairlərin, idmançıların və estrada ulduzlarının təmsil olunmasına qarşı çıxıb.



(səh.8)


**Həmişə haqq səsimiz qorundu**
Qoşulmama Hərəkatı ilə yolumuza davam etməliyik (səh.3)

**Televiziya reytinqlərinin ölçülməsi sahəsində Türkiyə təcrübəsi öyrənilir** (səh.4)

**Paşinyanın sonrakı hədəfləri bəlli olur**
Ermənistanda referendumun keçirilməsi mümkündür (səh.5)

**133 yeni yoluxma faktı qeydə alınıb**
71 nəfər sağalıb, 1 nəfər vəfat edib (səh.9)

# “Biz azad olunmuş ərazilərdə yenidənqurma işlərinə artıq başlamışıq”

## Azərbaycan Prezidenti: “Əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır”



**Minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.**

**Bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında çıxışı zamanı deyib.**

*Dövlət başçısı bildirib:*

”Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv edilməsi öz əksini tapıb.

Biz azad olunmuş ərazilərdə yenidənqurma işlərinə artıq başlamışıq. Orada müasir şəhərsalma planlaşdırılması həyata keçirilir. Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq. Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək.

Mən bu yaxınlarda ölkənin növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair beş milli prioritet müəyyən etmişəm. Digər məsələlərlə yanaşı, yüz minlərlə məcburi köçkünün doğma yurdlarına ləyaqətli və təhlükəsiz qayıdışı əsas prioritetimizdir.

Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan isə yaralanıb. Bundan əlavə, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana versin”.



# Azərbaycan Prezidenti Aleksey Overçuku qəbul edib

## Üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.**

Rusiya Baş nazirinin müavini Aleksey Overçuk Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Rusiyanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə edildi.

Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinə toxunuldu, ticarət dövriyyəsinin və Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracının artması məmnunluqla vurğulandı. Azərbaycan-Rusiya sərhədində sərhəd-keçid məntəqələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə olundu, Şimal-Cənub dəhlizi ilə tranzitin artırılması prosesinin çox fəal getdiyi bildirildi.

Söhbət zamanı ticarət, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# 3 gün qaldı

## Valideynlər iyulun 16-dək apellyasiya müraciəti edə bilərlər



**I sinfə qəbulla bağlı apellyasiya müraciətlərinin qəbulu davam edir.**

Təhsil Nazirliyindən verilən məlumata görə, nazirliyin birbaşa tabeliyində olan ümumi təhsil müəssisələrinin birinci siniflərinə qəbulla bağlı övladının müsabiqə nəticəsindən narazı olan valideynlər iyulun 16-dək apellyasiya müraciəti edə bilərlər.

Müraciətləri Təhsil Nazirliyi tərəfindən yaradılmış mqtn-apellyasiya@edu.gov.az elektron poçt ünvanına göndərmək lazımdır.

# Gürcüstanda çörəyin qiyməti bahalaşıb



**Gürcüstanda çörəyin qiyməti müvafiq olaraq 15 tetri bahalaşıb. Bununla yanaşı, digər un məmulatlarının da qiyməti bahalaşıb.**

Azərtac xəbər verir ki, çörəyin qiymətini Gürcüstan Çörəkbişirənlər Assosiasiyası müəyyən edib.

Assosiasiyadan bildirilib ki, qiymət artımına hökumətin un məmulatlarının alınması üçün verdiyi subsidiyanın iyunun 30-dan etibarən dayandırılması olub.

Hökumətin pandemiya ilə əlaqədar un istehlakçılarına verdiyi subsidiya 50 kiloqramlıq kisə üçün unun növündən asılı olaraq 10-15 lari təşkil edirdi.

# Şuşa ilə bağlı “nota oyunu"

## XİN: Ermənistan hələ də beynəlxalq hüquqa zidd olan və ərazi iddialarından çıxış edən mövqe sərgiləyir




**Ermənistan Xarici İşlər Nazirliyinin iyulun 9-da Azərbaycanda akkreditə olunan ölkələrin səfirlərinin Şuşa şəhərinə səfəri ilə əlaqədarı Ermənistandakı xarici ölkələrin diplomatik nümayəndəliklərinə nota təqdim etməsi ilə bağlı məlumat yayılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla bağlı fikirlərini bölüşüb.

XİN sözçüsü qeyd edib ki, Ermənistan XİN-in bu addımı bir daha onu göstərir ki, bu ölkə hələ də beynəlxalq hüquqa zidd olan və ərazi iddialarından çıxış edən mövqe sərgiləyir: ”Bir daha vurğulayırıq ki, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsindəki ərazisinə edilən hər hansı səfər Ermənistan tərəfindən nəinki etiraz, heç şərh belə oluna bilməz. Bu ərazilərə səfərlər Ermənistanın hərbi işğalı altında olan zaman qanunsuz xarakter daşıyırdı. Artıq Şuşa azad olunub, digər azad olunan bölgələrimiz kimi Azərbaycanın tərkib hissəsidir. Bura səfərlər də edilir və ediləcək, bərpa işləri də həyata keçirilir, şəhərin qanuni sahibləri öz evlərinə geri qayıdacaq, bir sözlə mədəniyyət beşiyimizdə həyat yenidən canlanacaq”.

*Leyla Abdullayevanın sözlərinə görə, Ermənistan XİN nota tərtib edərkən ən azından nəyə və nə əsasla etiraz etdiyini düşünməlidir:* ”Görünür, Ermənistan XİN-ində rəhbərliyin olmaması bu qurumun tərtib etdiyi sənədlərə də öz təsirini göstərir.

Ermənistan XİN-in artıq bölgədəki yeni vəziyyəti dərk etməsi gərəkdir. Keçmişdə olduğu kimi, beynəlxalq hüquqa zidd və destruktiv siyasətdən çıxış etmək Ermənistana yaxşı heç nə vəd etmir”.



# Mövlud Çavuşoğlu “Twitter" səhifəsində yazıb

## “Şuşa Bəyannaməsi ilə qardaşlıq əlaqələrimiz hər sahədə daha da güclənir”

**”Şuşa Bəyannaməsi ilə Türkiyə və Azərbaycan arasındakı qardaşlıq əlaqələri hər sahədə daha da güclənir”.** Trend bildirir ki, bu barədə özünün ”Twitter” səhifəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yazıb.

M.Çavuşoğlu bildirib: ”Şuşa Bəyannaməsi ilə qardaşlıq əlaqələrimiz hər sahədə daha da güclənir”.

Qeyd edək ki, iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalanıb.

*Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.*

# Həmişə haqq səsimiz qorundu

## Qoşulmama Hərəkatı ilə yolumuza davam etməliyik

**Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında çıxış edib. Ölkə başçısı 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edildiyini xatırladıb:**

"Qısa müddət ərzində Azərbaycan Qoşulmama Hərəkatında böyük hörmət və etimad qazandı. Mən Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündə vurğulamışdım ki, Azərbaycan beynəlxalq müstəvidə Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqları naminə əməli addımlar atacaq.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövrü üçün ətraflı və ambisiyalı fəaliyyət planı qəbul etmişdi".

Azərbaycanın qısa zamanda bu təşkilatda yüksək nüfuz qazanması iki il əvvəl onun Qoşulmama Hərəkatına sədr olmasına imkan verib. Qurumun 44 günlük müharibədə dövlətimizə ciddi dəstəyi məlumdur. Bununla əlaqədar müvafiq bəyanatların verildiyi də bəllidir. Məhz belə bəyanatlar Ermənistanın siyasi arenada ciddi məğlubiyyətinə səbəb oldu.

**Qoşulmama Hərəkatının BMT-dən sonra dünyada ikinci böyük təşkilat olduğunu deyən siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, bu quruma üzv olan dövlətlərin əksəriyyəti dünya siyasətində xüsusi güc və qüdrətə sahibdir:** "Azərbaycan hazırda dövlət kimi bu hərəkata başçılıq edir. Qoşulmama Hərəkatı 44 günlük müharibə vaxtı məhz ölkəmizin haqq işini qorudu, Ermənistan və onun tərəfdarlarının Azərbaycanın əleyhinə qəbul etmək istədikləri qətnaməni gündəlikdən çıxartdılar. Bu, Ermənistan və




havadarlarının dünya miqyasında ilk ciddi məğlubiyyəti idi. Çünki indiyə qədər heç kəs ermənilərin yürütdüyü anti-Azərbaycan siyasəti ilə bağlı ciddi addımlar ata bilməmişdi".

C.Nuriyev qeyd edib ki, Azərbaycan Prezidenti dəfələrlə Qoşulmama Hərəkatının hüquqları barədə ciddi bəyanatlar verib: "Dövlətimiz Qoşulmama Hərəkatına sədrlik edərkən dünyada siyasi söz sahibi olan beynəlxalq təşkilatlardan birinə çevrilib. Nə üçün bu durumdan yararlanmayaq ki? Ölkə başçısı çox uğurla Qoşulmama Hərəkatının nizamnaməsinə uyğun olaraq beynəlxalq hüquqi müstəvidə Azərbaycanın haqq işini həm dünyaya tanıtdı, həm də bu qurumun üzvü olan dövlətlərin haqlarını qorumağı bacardı. Bu təşkilatla əməkdaşlığımızı davam etdirməliyik. Multikultural dövlət kimi müharibə istəmirik, ancaq kimsəyə də imkan verməri ki, ərazilərimizi zəbt etsinlər. Düzdür, torpaqlarımız uzun müddət işğal altında qaldı. Bu da məhz ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyətinin nəticəsi idi. Amma dövlətimiz bu duruma da son qoydu. Düşünürəm ki, Qoşulmama Hərəkatı ilə əməkdaşlığımıza davam etməli, eyni zamanda dünyada sülhsevər bir xalq kimi missiyamızdan vaz keçməməliyik".

**Yeganə Bayramova**



# Minsk qrupu taleyini özü müəyyənləşdirdi

## Bundan sonra vasitəçi ölkələr Qarabağa dair proseslərdə hər hansı formada iştirak edə bilməz

**"Minsk qrupunun həmsədr ölkələrinin Azərbaycandakı səfirlərinin Füzuli və Şuşaya səfərdən imtina etmələrinə təəccüblənmək lazım deyil. Çünki bu qrup ilk başdan ədalətin təntənəsi üçün yaradılmayıb".**

*Bu sözləri "Şərq"ə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, təəccüb o zaman olardı ki, indiyə kimi yanımızda olan qəfildən bizdən üz döndərərdi:* "Torpaqlarımızın işğal altında qaldığı 30 ilə yaxın müddətdə həmsədrlərdən hansı ədalətli mövqe gördük ki, onların növbəti ədalətsizliyini görəndə heyrətimizi, təəccübümüzü və təəssüfümüzü ifadə edək? Əksinə, davranışın şahidi olsaydıq, onda təəccüblənərdik. Həmsədrlər səfərdən imtina etmələri ilə əslində öz ənənəvi mövqelərini davam etdirdiklərini bir daha nümayiş etdirdilər. Diplomatlar Şuşaya səfərdən imtina etməklə güya "tərəfsizlik" və "obyektivlik" nümayiş etdirmək istədilər. Lakin əsl həqiqətdə isə onlar məhz bu hərəkətləri ilə ədalətsizliyin yanında durduqlarını göstərdilər və tərəflərini bəlli etdilər".

*Ə.Hüseynovun fikrincə, səfirlərin bu hərəkətinin bir yox, bir çox izahları var:* "Onların Şuşaya getməkdən imtina etməsi həm siyasi və diplomatik nəzakətsizlikdir, həm də təmsil etdikləri ölkələrin hər zaman "ikili standartlar" siyasəti yürütmələrinin əyani təzahürüdür. Eyni zamanda həm Minsk qrupunun varlığını bu və ya digər şəkildə qoruyub saxlamaq cəhdidir. Bilavasitə özlərinin təklif edib qəbul etdikləri beynəlxalq hüquq normalarına qarşı açıq şəkildə hörmətsizlikdir. Bu cür riyakar yanaşma ilə ATƏT və onun həmsədrləri postmüharibə dönəmindəki proseslərə heç bir töhfə verə bilməz. Minsk qrupu bundan sonra Qarabağa dair proseslərdə hər hansı formada iştirak etmək iddiası ilə çıxış etməməlidir. Ermənistanı dəstəkləyən ölkələrin bizim işlərimizə qarışmağa nə mənəvi haqqı, nə də siyasi-hüquqi haqları çatır".

**İsmayıl Qocayev**

# Azərbaycan-Rusiya münasibətlərində daimi dinamizm hökm sürür

## Hər iki tərəfin qarşılıqlı anlaşma, bərabərhüquqlu fəaliyyət əsasında bütün problemlərin həllini tapma kimi bir istəyi var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib. Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib.**

Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinə toxunulub, ticarət dövriyyəsinin və Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracının artması məmnunluqla vurğulanıb. Azərbaycan-Rusiya sərhədində sərhəd-keçid məntəqələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin Şimal-Cənub dəhlizi ilə tranzitin artırılması prosesinin çox fəal getdiyi bildirilib.



Söhbət zamanı ticarət, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**Görüş barədə "Şərq"ə danışan politoloq Tofiq Abbasov vurğulayıb ki, Azərbaycan-Rusiya münasibətlərində daimi dinamizm var:** "Bu da onu göstərir ki, hər iki tərəfin qonşu dövlətlə bağlı nikbin baxışları, yüksək hazırlığı və iş əzmi mövcuddur. Təbii ki, zaman-zaman həllini tapan məsələlərin ətrafında yeni çağırışlar və problemlər qaldırılır.

Ona görə də təmasların tez-tez baş verməsi o deməkdir ki, danışıqlar və məsləhətləşmələr yolu ilə bütün dolaşıq məqamlarla bağlı birgə səylər formalaşır.

Məlumdur ki, Rusiya Cənubi Qafqaz bölgəsində fəallıq nümayiş etdirir. Əlbəttə, siyasi məsələlərlə yanaşı, iqtisadi, humanitar və sosial məsələlər də öz həllini gözləyir.

Ötən ilin 10 noyabr üçtərəfli bəyanatından sonra ortada əməli fəaliyyət proqramı var. Bununla yanaşı digər sahələrdə də yeni proseslər başlayıb. Ona görə də yalnız siyasi yox, eləcə də sosial, iqtisadi və humanitar proseslərlə bağlı Rusiya və Azərbaycan tərəfi öz münasibətlərini bildirirlər".

**T.Abbasovun fikrincə, Rusiya Baş nazirinin müavini Prezidentimizin qəbulunda olarkən təbii ki, Rusiya rəhbərliyinin mesajlarını çatdırır, digər tərəfdən istəklərini bildirir:** "Bundan sonra isə Azərbaycan rəhbərliyinin bu məsələyə reaksiyasını öyrənərək öz prezidentlərinə çatdırırlar. Faktiki olaraq belə formatda görüşlər həmişə işlək vəziyyətdə olur.

Bu, ümidverici bir prosesdir. Məlumdur ki, pandemiya dövründə müəyyən problemlər oldu.

Bu zaman fəal dövlətlər, onların işlək mexanizmləri və proseslərə qatılan təsisatlar elə bir şərait yaradırlar ki, çətin və mürəkkəb olan məsələlər həll yoluna çıxsın. Azərbaycan-Rusiya sərhədindən başlayaraq ikitərəfli gözləntilər dinamikdir.

Təbii ki, iki ölkə arasındakı münasibətlər bəllidir. Ən böyük qazanc isə ondan ibarətdir ki, hər iki tərəfin qarşılıqlı anlaşma, bərabərhüquqlu fəaliyyət əsasında bütün problemlərin həllini tapma kimi bir istəyi var".

**Yeganə Bayramova**



# Televiziya reytinqlərinin ölçülməsi sahəsində Türkiyə təcrübəsi öyrənilir



**2021-ci il iyulun13-də Milli Televiziya və Radio Şurasının və Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycan-Türkiyə Birgə Media Platforması çərçivəsində "Televiziya reytinqlərinin ölçülməsi sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi" mövzusunda seminar keçirilib.**

Tədbirdə Türkiyə Respublikasında televiziya reytinqlərini öyrənən TİAK "Televizyon İzleme Araştırmaları" Anonim Şirkətinin rəhbər şəxsləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, İqtisadiyyat Nazirliyinin, Medianın İnkişafı Agentliyinin, Milli Televiziya və Radio Şurasının rəsmi nümayəndələri, ümumölkə televiziya kanallarının rəhbərləri iştirak ediblər.

**Tədbiri giriş sözü ilə açan Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov tədbir iştirakçılarını və qonaqları salamlayıb, Azərbaycan-Türkiyə Birgə Media Platforması çərçivəsində keçirilən tədbirlərin davamı kimi bu tədbirin xüsusi önəmini vurğulayıb**. O, bildirib ki, bütün dünyada olduğu kimi Azərbaycanda da audiovizual industriyanın inkişafının baza şərtlərindən biri keyfiyyətli və mötəbər televiziya izləmə reytinqlərinin ölçülməsidir. Azərbaycanda bu sahədə olan mövcud problemlərin teleradio reklam bazarının zəif inkişaf etməsinə gətirib çıxardığı vurğulanıb. Son illərdə bu sahədə inamlı addımlar atan Türkiyə teleradio sahəsi və orada mövcud reytinq ölçmə sistemi Azərbaycanda da maraqla öyrənilir. Şura sədri qeyd edib ki, TİAK nümayəndələrinin Bakı şəhərində belə bir təqdimat keçirməsi və Azərbaycanda Türkiyə təcrübəsinin müzakirəsi xüsusi əhəmiyyət daşıyır.

**Daha sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov media sahəsində aparılan islahatlardan söz açıb, qardaş Türkiyənin media sahəsində atdığı uğurlu addımlarının Azərbaycanda da yaxından izlənildiyini və həmin təcrübənin öyrənilməsinin müsbət əhəmiyyətini qeyd edib.**

TİAK Baş direktoru Dursun Güleryüz dəvətə və tədbirin təşkil edilməsinə görə təşəkkürünü bildirib, TİAK şirkəti və onun fəaliyyəti haqqında geniş məlumat verib. Daha sonra, TİAK Texniki komitəsinin üzvü Ogün Doğan Akyol TİAK-ın televiziya izləmələrinin ölçülməsi sahəsindəki fəaliyyətinə həsr edilən geniş video təqdimat təqdim edib.

Tədbirin ikinci hissəsində Türkiyə tərəfinin etdiyi təqdimat və müasir reytinq ölçmə sisteminin Azərbaycanda mümkün tətbiqi barədə geniş müzakirələr aparılıb.

**Aynurə Pənahqızı**

---

*İrəvan şəhərinin 1918-ci ildə ermənilərə güzəştə gedilməsinə dair AMEA Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Vasif Qafarovun 19 və 26 iyun 2020-ci tarixlərində "Space" televiziya kanalının "Sadə həqiqətlər" verilişindəki müsahibələri geniş ictimai-elmi dairələrin kəskin etirazına səbəb olmuşdu.*

# Daha Vasif Qafarovu bağışlamaq yoxdur

## Məhkəmənin ədalətsiz qərarından məyus olan tarixçi alimlər iddialarından əl çəkməyəcəklər



V.Qafarovun ilk proqramda "İrəvanın ermənilərə verilməsi" ilə bağlı səsləndirdiyi mübahisəli fikirlərə və sərgilədiyi tarixi faktlara bir qrup tarixçi-alim və ziyalı sərt münasibət bildirmiş və iddiaların əsassız olduğunu bəyan etmişdilər. Bundan sonra ikinci dəfə efirə dəvət olunan tarixçi Vasif Qafarov 4 tanınmış alimin - Solmaz Rüstəmova-Tohidi, Qulu Məhərrəmli, Firdovsiyə Əhmədova və Boran Əzizin ünvanına təhqiramiz fikirlər səsləndirib. Alimləri "yarımçıq tarixçilər", "savadları çatmır", "Milli Şuranın ştatdankənar üzvləri", "İrəvanı Azərbaycan torpaqları saymayan", "onun ermənilərə verilməsinə haqq qazandıran", nəhayət "Vətənə, dövlətə xəyanət edən" şəxslər adlandırıb. Tarixçilərə qarşı siyasi və hüquqi xarakterli ittihamlar irəli sürüb. Adları zikr olunan tarixçi-alimlər həmin ilin iyul ayında Vasif Qafarovu ittihamlardan dolayı üzr istəməyə dəvət ediblər. Əks halda onu məhkəməyə verəcəklərini bildiriblər. Üzrxahlıq edilmədiyindən 9 oktyabr 2020-ci il tarixində Nəsimi rayon məhkəməsində tarixçi Vasif Qafarov barəsində iddia qaldırılıb. Dörd nəfər tarixçi-alim məhkəmədən V.Qafarovun onların barəsində işlətdiyi ifadələrin böhtan, təhqir və işgüzar nüfuzu zədələyən məlumatlar kimi tanınmasını və iddiaçılardan üzr istəmək öhdəliyinin qoyulmasını istəyiblər. Öz növbəsində Vasif Qafarov da "vicdansızcasına iddia tələbi irəli sürüldüyü" (bütün sənədlərdə belə göstərilib - red) üçün sosial şəbəkələrdə təhqir edilməsi ittihamı ilə qarşılıqlı iddia qaldırıb. Tarixçilərin məhkəmə çəkişmələrində pandemiya ilə bağlı fasilələr yaranıb və iddiaçıların vəkili Adil İsmayılov dünyasını dəyişib. Alimlər yeni vəkildən imtina etmək qərarına gəliblər və iddia ərizəsi məhkəmə linqvistik ekspertizaya göndərilib. Bunun ardınca 3 məhkəmə iclası keçirilib. Nəhayət, Nəsimi rayon məhkəməsi dörd nəfər tarixçinin ünvanına işlədilən ifadələrin heç birini "böhtan, təhqir və işgüzar nüfuzu zədələyən, şərəf və ləyaqəti alçaldan məlumatlar" kimi tanımayıb, yəni iddia təmin edilməyib. Eyni zamanda Vasif Qafarovun da qarşılıqlı iddiası rədd olunub və qətnamə verilib.

**Tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi feysbuk profilində məhkəmənin gedişatına və qətnamənin ona aid hissəsinə kəskin etirazını bildirib**. Tarixçi-alim vurğulayıb ki, V.Qafarovun qarşılıqlı iddia ərizəsində, eləcə də ekspert rəyində və məhkəmə qətnaməsində ifadələrin konkret olaraq onlara deyil, "qeyri-müəyyən şəxslərə" ünvanlandığı qeyd olunub: "Ortada sübut kimi həmin verilişin videosu və onun yazılı mətni olduğu halda, V.Qafarov bütün bu dediklərini həyasızcasına dansa da, lakin şəxsən mənə qarşı irəli sürdüyü ittihamların sonadək üstündə durur. Mənim 1918-ci il mart hadisələrini "kütləvi qırğınlar" adlandırmaqla guya onları "soyqırımı" hesab etmədiyim kimi sərsəm bir fikir israrla məhkəmənin nəzərinə çatdırılır. Mən bu səbəbdən inadla "Vətənə, dövlətə, xalqa xəyanətdə" ittiham olunurdum. Bu, çox ciddi məqamdır və ayrıca olaraq araşdırılmasına ehtiyac var. Məhkəməyə ekspert rəyi vermiş Hümmət Vəliyev ədliyyə müşaviridir. Bu şəxsin dövlət məmuru olduğu halda müstəqil ekspert qismində çıxış etməsinin doğurduğu sualı, eləcə də verdiyi rəyin sanki Vasif Qafarovun vəkili tərəfindən yazıldığı kimi ümumi təəssüratı kənara qoyar. Əsasən, rəyçinin aşağıdakı mühakiməsinə diqqət yetirək: "V.Qafarov Azərbaycanda 1918-ci ildə ermənilər tərəfindən törədilmiş facieni "soyqırım" termini ilə adlandırmadığı üçün Solmaz Tohidini Azərbaycana ən böyük xəyanət edən, İrəvanın ermənilərə verilməsi ilə bağlı tarixi faktları inkar edənləri isə "Vətən xainləri" adlandırmaqla tarixçinin mənəvi məsuliyyətinə istinad edir. Həmin sözlər müsahibənin ümumi kontekstində təhqir məqamında deyil, özlərinə olan etimaddan sui-istifadə edərək Vətəninə, xalqına dönüklük, etibarsızlıq etmək, aldadıcı mövqedə durmaq, bel bağlanıla bilməyən şəxslər kimi mənalarda işlənmişdir". Ekspert, özü V.Qafarovun ünvanımıza səsləndirdiyi "Vətən xaini", "Dövlətə, xalqa xəyanət" kimi ittihamlarına "özlərinə olan etimaddan sui-istifadə edərək Vətəninə, xalqına dönüklük, etibarsızlıq etmək, aldadıcı mövqedə durmaq, bel bağlanıla bilməyən şəxslər" kimi izahlar verir və sonra bunları heç təhqir də saymır?! Bu nə məntiqdir? Bunu necə anlayaq?".

**Solmaz Rüstəmova-Tohidi bildirib ki, bütün sənəd və şəkilləri məhkəməyə təqdim etsə də, hakim Natavan Tağıyeva tərəfindən hər hansı reaksiya verilməyib, ona heç bir dəqiqləşdirici sual-filan da verilməyib:** "Bəzən onun məni və həmkarlarımı dinlədiyinə, məhkəmənin gedişinin onu ümumiyyətlə maraqlandırdığına şübhəmiz yaranırdı. Vasif Qafarova hər vəchlə bəraət qazandırmaq məqsədilə istənilən qanunu və ya halı istədiyi kimi şərh edən hakim N.Tağıyeva ünvanımıza səsləndirilən ifadələrin "təhqir, böhtan, işgüzar nüfuzu zədələyən" xarakterini danaraq onları "fikir və söz azadlığı" kontekstində qiymətləndirdi".

**Məhkəmədə iddia qaldıran tarixçi-alim Boran Əzizli "Şərq"ə açıqlamasında hakimdən və qətnamədən narazılıq edib. Tarixçinin sözlərinə görə, hakimin tərəfkeşliyi ilk gündən bəlli oldu:** "Məhkəmə hakiminin respublikada tanınmış nüfuzlu alimlərə qarşı söylənilən ittihamları və təhqirləri müdafiə etməsi çox acınacaqlı haldır. Hakimin ədalətsiz mövqe tutması bizi məyus etdi. Ekspert qismində rəy verən adamdan daha çox narazı qaldıq. Çünki ekspert hesab edir ki, ünvanımıza söylənilmiş həmin ifadələr təhqir sayılmır. Əgər o ifadələr təhqir deyilsə, o zaman biz də həmin sözləri ona aid edirik. Solmaz xanımın fikirləri ilə tamamilə razıyam. Məhkəmə sisteminin birtərəfli olması barədə çox eşitmişdik. Güman edirdik ki, ölkədə hər sahədə gedən dərin islahatlar məhkəmə-hüquq sisteminə də sirayət etmiş olar. Əfsuslar olsun ki, məhkəmələrin dəyişmədiyinin şahidi olduq. Əmin olduq ki, məhkəmə sisteminə ciddi əl gəzdirmədən ölkədə aparılan islahatlara kölgə düşəcək".

*Alim vurğulayıb ki, yuxarı instansiyalara müraciət etməklə bağlı məsələ hələlik müzakirə mövzusindədir:* "Sözün açığı, aşağı məhkəmələrdəki vəziyyəti gördəndən sonra ümumi məhkəmə sistemi haqqında mənfi təsəvvürümüz formalaşdı. Ümumi məsləhətləşmələrdən sonra yekun qərarımızı verəcəyik. Biz həmin gənci *(tarixçi Vasif Qafarovu nəzərdə tutur - red)* bağışlamaq niyyətindəydik. Çünki möhtəşəm Qələbə yaşamışdıq və hətta cinayətlər törətmiş düşmənimizi, erməniləri belə əfv edirdik. Amma gözləyirdik ki, o şəxs üzrxahlıq bildirəcək, söylədiklərinə görə peşmanlığını ifadə edəcək. Təəssüf ki, ondan belə bir addım görmədik. Əksinə, iddialı, yersiz və özündən razılıq əlamətləri gördük".

**İsmayıl Qocayev**

# Avropa İttifaqı Azərbaycanın yaratdığı yeni reallıqları qəbul edir



## Regionumuzdakı proseslərin nizamlanmasına qarşı çıxan və təxribatlar hazırlayan qüvvələrin fəaliyyəti iflasa uğramaqdadır

**Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi Azərbaycana səfərinin yekunları ilə bağlı fikirlərini bölüşüb. Avropa Komissiyasının rəsmi saytında yerləşdirilən bu fikirlərdə komissar səfərinin Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq əlaqələrinə yeni təkan verdiyini qeyd edib.**

Xüsusilə Qarabağ mövzusunda geniş fikir mübadiləsi aparıldığını deyib. Bildirib ki, Avropa İttifaqı olaraq müharibənin nəticələrini aradan qaldırmaq və bölgədə uzunmüddətli sülh naminə birgə çalışmaq üçün Qarabağ münaqişəsinin post-konflikt dövrü ilə bağlı plan və fikirlər barədə rəsmi Bakı ilə müzakirələr aparılır.

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov vurğulayıb ki, Aİ nümayəndəsinin rəsmi Bakının müharibədən sonra bəyan etdiyi tezisləri dilə gətirməsi, sözsüz ki, daha bir beynəlxalq platformada ölkəmizin məqsədinə çatdığının göstərəcisidir.** Analitik vurğulayıb ki, O.Varhelyi "müharibənin nəticələrini aradan qaldırmaq", "uzunmüddətli sülh naminə birgə çalışmaq" kimi ifadələr işlədir: "Bu ifadə və yanaşmalardan aydın olur ki, Avropa İttifaqı Azərbaycan kimi, hazırda Qarabağ münaqişəsinin post-münaqişə mərhələsində olduğunu və qarşıdakı məqsədlər sırasında məhz bölgədə quruculuq işlərinin aparılması, Zəngəzur dəhlizinin açılmasını, yeni münasibətlərin qurulmasını hədəf kimi görür. Avropa İttifaqının nümayəndəsinin bu fikirləri səsləndirməsi Birliyin Qarabağ münaqişəsinin artıq həll olunduğunu qəbul etdiyini təsdiqləyir. Təbii ki, Avropa İttifaqının bu fikirləri səsləndirməsi erməni tərəfi və erməni məsələsi adı altında bölgədəki siyasi proseslərə müdaxilə etməyi düşünən bəzi dövlətlər üçün xoşagəlməzdir. Çünki ən vacib aktorlarından sayılan Avropa İttifaqının Cənubi Qafqazda müharibədən sonra yaranmış siyasi mənzərə ilə bağlı baxış bucağı ümumilikdə Azərbaycan və Ermənistan arasında gələcək proseslərə təsir edəcək. Təsadüfi deyil ki, Avropanın bəzi ölkələrinin erməni lobbisinə çalışan parlamentləri qanunverici orqanlarda anti-Azərbaycan bəyanatlarına nail olmaq, sonra isə məsələni Aİ miqyasında qaldırmaq iddiasında idilər. Lakin göründüyü kimi, regionumuzdakı proseslərin nizamlanmasına qarşı çıxan və təxribatlar hazırlayan qüvvələrin fəaliyyəti iflasa uğramaqdadır. Avropa İttifaqı Azərbaycanın yaratdığı yeni reallığı qəbul edərək, artıq Qarabağ məsələsinin keçmişdə qaldığını, bölgədə yeni proseslərə dəstək verməyə hazır olduğunu bəyan edir".

**İsmayıl**



## Dənizdən-dənizə ittifaq yarada bilərik

### "Azərbaycan - Türkiyə ideologiyası doğuldu"

**"Müharibədən sonra yeni ideologiyaya ehtiyac yarandı. Bu, özündə xüsusilə daxili və xarici siyasəti ehtiva etməlidir".**

*Bu sözləri "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. Onun fikrincə, savaşın nəticəsi yeni reallıq yaradıb:*

"Məsələ ondan ibarətdir ki, Ermənistan illər uzunu "Dənizdən-dənizə böyük Ermənistan" ideologiyası ilə Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları irəli sürüb, soyqırımlar törədib. Hərçənd dənizi yoxdur. Amma iki qardaş dövlətin dənizə çıxışı var. Təsadüfi deyil ki, hərbi əməliyyatlardan sonra Ermənistan ideologiyası boğuldu, Azərbaycan-Türkiyə ideologiyası doğuldu. Bizim (red: Azərbaycan və Türkiyə) Aralıq dənizinə, Qara dənizə və Xəzər dənizinə çıxışımız var. Deməli, dənizdən-dənizə ittifaq yarada bilərik və yaratmalıyıq".

**Kənan**

# Paşinyanın sonrakı hədəfləri bəlli olur

## Ermənistanda referendumun keçirilməsi mümkündür

Ötən ay Ermənistanda keçirilən qalmaqallı növbədənkənar parlament seçkilərindən sonra İrəvanda "suların durulacağı" gözlənilsə də, hələlik bu ölkədəki siyasi sistem qeyri-sabit qalmaqdadır. Yerli media Baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın yenidən xalqın etimadını qazanaraq ölkəyə rəhbərlik etməsini onda özünəinam hissini artırdığını yazır.

Təhlilçilər hətta Ermənistanın siyasi sistemində fundamental dəyişikliklərin olacağını da proqnozlaşdırırlar. Məsələn, "Fakt" qəzeti xalqı seçkilərlə əlaqədar daha bir ciddi sınağın gözlədiyini iddia edib. Erməni nəşri bununla bağlı dərc olunan məqalədə xatırladıb ki, hələ ötən il Konstitusiyaya Dəyişikliklər üzrə Peşəkar Komissiyanın ilk iclası keçirilmişdi. Konstitusiya dəyişiklikləri konsepsiyasının 2020-ci ilin payızına qədər hazır olması və bundan sonra ictimai müzakirəyə çıxarılması düşünülürdü. Ancaq 44 günlük müharibə səbəbiylə komissiyanın işi dayandırıldı. Məqalədə qeyd edilir ki, hazırda səlahiyyətlilər konstitusiya dəyişikliklərinə yenidən qayıtmaq niyyətindədir: "Söhbət demək olar ki, yeni bir konstitusiyanın yazılmasından, dərin, köklü dəyişikliklərdən gedir. Xüsusilə bu dəyişikliklər hökumət modelinin yenilənməsinə aiddir, yəni yarıprezident idarəetmə sistemi ilə bağlıdır". Yazıda həmçinin iddia olunub ki, bu günlərdə qeyri-rəsmi səviyyədə səlahiyyətlilərlə işləyən hüquqşünaslar məsələnin ətraflı araşdırılması ilə məşğuldur. Paşinyan bu ilin sonuna qədər konstitusiya referendumu keçirmək niyyətindədir. Lakin bu, faktiki olaraq mümkün görünmür: "Buna görə də hazırda referendumun 2022-ci ilin yazından gec olmayaraq keçirilməsinin mümkünlüyü müzakirə olunur. Hazırda səlahiyyətlilər arasında yarı prezidentliyə deyil, tam hüquqlu prezident idarəetmə modelinə keçməyə çağıranlar var. Əgər səlahiyyətlilər referendumu göstərilən müddətdə keçirməyi və konstitusiya dəyişikliklərini reallaşdırmağı bacarsalar, o zaman böyük ehtimalla gələn il ölkəmizdə yeni seçki marafonu baş tutacaq. Marafon bu dəfə prezident seçkiləri ilə bağlı olacaq".



### Bir müddət sonra prezident üsul-idarəsinə keçid məsələsi müzakirə olunacaq

**Ermənistanda baş verənləri "Şərq"ə təhlil edən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi şərhçi Tural İsmayılov bildirib ki, Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra ölkədə sovet totalitarizmini yenidən bərpa etməyə başlayıb. Analitik xatırladıb ki, Paşinyanın Konstitusiya Məhkəməsinə qarşı hücumları tədricən başqa sahələrə də sirayət edib.** Nəticədə Ermənistanda misli görünməmiş avtoritar idarə üsulu formalaşmağa başlayıb: "Bunların fonunda Paşinyanın yaxın ətrafından hazırkı siyasi sistemin dəyişməsi ilə bağlı dəfələrlə mesajlar eşitmişik. Ümumiyyətlə, həm erməni ictimai rəyinin nəbzini ölçmək, həm də Ermənistandakı müxalif siyasi qüvvələri neytrallaşdırmaq üçün dəfələrlə bu tip açıqlamalar verilib. Paşinyan komandasının növbədənkənar parlament seçkisindən sonra yeni referendumun keçirilmə ehtimalından danışılıb. Nəzərə alaq ki, Ermənistan Prezidenti Armen Sarkisyanla Paşinyanın münasibətləri o qədər yaxşı deyil. Bu baxımdan öz hakimiyyətini gücləndirmək və qərarvermə müstəvisində daha kövrək olan baş nazirlik institutunun yerinə prezident üsul-idarəsini möhkəmləndirmək Paşinyanın sonrakı hədəfləri içində yer ala bilər. Xüsusən, növbədənkənar parlament seçkisində qələbədən sonra Paşinyanın özünə və tərəfdarlarına inamı artıb. Ermənistanda referendumun keçilməsi mümkündür. Bir müddət sonra prezident üsul-idarəsinə keçid məsələsi müzakirə olunacaq. Prezidentlik üsul-idarəsi isə Paşinyanın diktaturasına yönəlmiş bir addım olacaq. Referendumun keçirilməsi növbəti parlament və prezident seçkilərində Paşinyanın əlini qüvvətləndirməyə xidmət edir. Ermənistan normal və müstəqil ölkə olmadığı üçün orada hər bir iddianın gələcəkdə reallaşma ehtimalı böyükdür".

**İsmayıl Qocayev**

# Bircə Ankaranın qırmızı xəttini keçməyəsən...

## *Türkiyə-İsrail yaxınlaşması, hətta dostluq münasibətləri hər iki ölkəyə böyük faydalar gətirəcək*



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İsrailin yeni Prezidenti İshak Hersoq arasında telefon danışığı baş tutub. Türkiyə lideri bildirib ki, bütün fikir ayrılıqlarına baxmayaraq təmasların və dialoqun qorunması vacibdir. Ərdoğan vurğulayıb ki, beynəlxalq ictimaiyyət Fələstin-İsrail münaqişəsinin BMT qətnamələri çərçivəsində həll olunacağını gözləyir:

"Türkiyə-İsrail münasibətləri Yaxın Şərqin təhlükəsizliyi və sabitliyi üçün böyük əhəmiyyətə malikdir. Fələstin-İsrail münaqişəsinin həllində atılan müsbət addımlar, Türkiyə ilə İsrail arasındakı münasibətlərin inkişafına da təkan verəcək". Yeni Prezident İshak Hersoqun Türkiyə siyasətinin Benyamin Netanyahudan fərqli olacağı artıq özünü doğruldur. Təbii ki, proses birdənbirə baş verə bilməz. Lakin qarşıdakı günlərdə Ankara ilə Təl-Əviv arasında buzların əriməsi gözlənilir. Ekspertlərin fikrincə, Türkiyə-İsrail münasibətləri tarixi ənənəyə əsaslanır. Tərəflər arasında hazırda ən kəskin və ziddiyyətli məsələ Fələstinlə bağlıdır. Türkiyənin bu məsələdə mövqeyi birmənalıdır. İsrail bu məsələdə Türkiyənin damarına basmayacağı təqdirdə Ankara ilə uzlaşa bilər.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə bildirib ki, Azərbaycan öz müttəfiqlərinin bir-biri ilə sıx əməkdaşlıq etməsində, yaxın münasibətlər qurmasında maraqlıdır.** Partiya rəhbərinin sözlərinə görə, İsrail-Türkiyə, İsrail-Pakistan münasibətləri Qarabağ savaşından əvvəl heç də ürəkaçan deyildi: "Bu dövlətlərin hamısı Qarabağ məsələsində bir araya gələ bildilər, Azərbaycanın yanında olmağı bacardılar. Rəsmi Bakı üzərindən həmin ölkələrə birlik və əməkdaşlıq imkanları açıldı. Təsadüfi deyil ki, Qarabağ müharibəsi bitən kimi Türkiyə-İsrail arasında hərbi-sənaye sahəsində əməkdaşlıq üzrə bir sənəd imzalandı. Azərbaycan buna zəmin yaratdı. Düşünürəm ki, İsrail nəhayət Türkiyənin regiondakı gücünü və Ankara hökumətinin Fələstin məsələsindəki həssaslığını real dəyərləndirəcək. Türkiyə-İsrail yaxınlaşması, hətta dostluq münasibətləri hər iki ölkəyə böyük faydalar gətirəcək. Təbii olaraq, Azərbaycanın maraqlarına da uyğundur".

**T.Abbaslıya görə, Türkiyə tərəfi bəyan edir ki, Təl-Əvivlə əlaqələrin normala dönməsi İsrailin Fələstinlə bağlı atacağı müsbət addımlarla birbaşa bağlıdır:** "Bu, Ankaranın qırmızı xəttidir. İsrail Fələstinə münasibətdə BMT-nin qayda-qanunları çərçivəsində davranacağı müddətdə Türkiyə ilə əlaqələr formalaşa bilər. İsraildə bəzi radikal qruplar Türkiyəyə qarşı əsassız ittihamlar səsləndirirdi. Yəqin, onlar da dərk edirlər ki, qardaş ölkə regional deyil, qlobal gücə çevrilib. Dünyanın geosiyasi qüvvəsinə çevrilib və aparıcı ölkələr Türkiyə ilə hesablaşmaq məcburiyyətində qalıb. Bu reallıq əvvəl-axır Təl-Əviv tərəfindən qəbul olunmalıdır. İnanmıram ki, bundan sonrakı dövrdə münasibətlər pisləşməyə doğru gedəcək. Türkiyə-İsrail əlaqələrinin ağır dönəmləri arxada qalıb".

**İsmayıl Qocayev**

# Gündəm dəyişir

## Pakistan Şimali Kipr Türk Cümhuriyyətini tanıya bilər



Pakistan Şimali Kipr Türk Cumhuriyyəti ilə əlaqələr qurmağa hazırlaşır. Bu haqda Pakistanın Ankaradakı səfirliyi sosial media hesabından məlumat yayıb. Bildirilib ki, Şimali Kipr Türk Cümhuriyyətinə bir heyət göndəriləcək. Paylaşımda Şimali Kipr Türk Cümhuriyyətinin adının qeyd olunması Yunanıstan və yunan Kiprində caxnaşmaya, kiprli türklər arasında isə həyəcana səbəb olub.

Yunanıstan mediası isə Pakistanın Şimali Kipr Türk Cümhuriyyətini tanıyacağı halda baş verə biləcək senarilər haqda yazıb. Şimali Kipr Türk Cümhuriyyəti mətbuatı isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 20 iyulda gözlənilən səfərindən öncə Pakistanın belə bir addım atmasına diqqət çəkib. Şimali Kipr mediasının yazdığına görə, KKTC-nin bir çox ölkə ilə, xüsusən də Türkiyənin dostları və müttəfiqləri ilə təmasları önümüzdəki dövrdə güclənəcək. Xüsusilə də iqtisadi və ticari əməkdaşlıq qurulacaq. Xatırladaq ki, Ersin Tatarın KKTC prezidenti seçilməsindən sonra, Pakistanın adanın türk hissəsini dövlət olaraq tanıya biləcəyi qeyd edilirdi.

**Məsələni "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Pakistanın uzun müddətdən sonra belə bir addım atmasına Qarabağ məsələsindən sonrakı proses kimi baxmaq lazımdır**. Analitikin sözlərinə görə, son günlər beynəlxalq cameədə Pakistan-Türkiyə və Azərbaycan formatında yeni islam birliyinin yaradılacağı ilə bağlı iddialar səslənməkdədir: "Hətta bu birliyə Mərkəzi Asiya ölkələrinin daxil ediləcəyi də gündəmə gətirilir. Təbii ki, burada söhbət rəsmi ittifaqdan getmir, sadəcə, islam coğrafiyası üzərindən qurulan birlikdən bəhs edilir. Türkiyənin Əfqanıstanda qalması da bunun tərkib hissəsidir. Əlbəttə, bu, uzun prosesdir və gələcəyə hesablanmış senaridir. Bunun fonunda Pakistanın Şimali Kipr Türk Cümhuriyyətinin tanınması gündəmə daşına bilər. Ankaranın belə bir gündəmi var. Xatırladım ki, Şimali Kipr Türk Cümhuriyyəti ilə yunan Kipri arasında bir bölgə var idi və həmin ərazidə uzun müddət heç bir fəaliyyət göstərilmirdi. Yunan tərəfi buna etiraz edirdi, çünki bölgə turizm və iqtisadi baxımdan önəmliydi. Amma Türkiyə həmin bölgədə fəaliyyətlərə başladı və oranı Kiprdəki türklərin istifadəsinə verdi. Böyük addım idi və fikrimcə, bu addımların davamı olacaq. Dəfələrlə adanın türk idarəsi ilə yunanlılar arasında danışıqlar olsa da, Ankara hökuməti qarşı tərəfə güzəştə getməyib. Şimali Kipr Türk Cümhuriyyətinin yaxın gələcəkdə tanınması, bu məsələnin ciddi şəkildə gündəmə gətirilməsi mümkündür. Hesab edirəm ki, burada İngiltərənin də rolu hiss olunur".

**A.Nərimanlı Pakistanın Ərdoğanın məlum səfərindən əvvəl tanınma ilə bağlı hansısa addım atacağını inandırıcı görmür:** "Hər halda ümumi proses və gedişat göstərir ki, bu istiqamətdə addım atılması ehtimalı böyükdür. Hətta uzaq gələcəkdə Azərbaycanın da Şimali Kipr Türk Cümhuriyyətini tanıması gündəmə gələ bilər. Onsuz da Şimali Kiprlə əlaqələrimiz kifayət qədərdir və bu əlaqələri daha da genişləndirə bilərik. Ancaq sırf tanınma məsələsinin tez zamanda reallaşması qeyri-mümkündür. Bunun beynəlxalq hüquq tərəfləri də var. Ümumən ifadə edim ki, Şimali Kiprin strateji üstünlüyü böyükdür. Amerika Yaxın Şərq və Aralıq dənizi bölgəsi üçün Kipri əsas baza olaraq görürdü. İngiltərənin siyasi proseslərə daha aktiv qoşulması nəticəsində London da eyni məqsədlə adadan istifadə etmək niyyətində ola bilər".

**İsmayıl Qocayev**



# Daha heç kimə güzəşt olmayacaq

## "Xalqın etimad göstərdiyi vəzifəli şəxslər nümunə olmalıdırlar"

**Azərbaycanda bələdiyyə sədri barəsində cinayət işi başlanılıb. Şabran rayonu Pirəbədil bələdiyyəsinin sədri Nuriyev Camaləddin Müzafəddin oğlu barəsində Cinayət Məcəlləsinin 309.2-ci (Vəzifə səlahiyyətlərini aşma, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə) maddəsi ilə cinayət işi başlanıb.**

Onun barəsində aparılan ibtidai istintaq başa çatıb. C.Nuriyev barəsində toplanan cinayət işi materialları baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd edək ki, C.Nuriyev 10 ildən artıq Pirəbədil bələdiyyəsinin sədri olub.

**Mövzunu "Şərq"ə şərh edən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni qeyd edib ki, dövlət qurumlarından şəffaflıq, düzgünlük və ədalətlilik tələb ediriksə, ilk növbədə özümüz şəffaf olmalıyıq. Bələdiyyələr də o cümlədən:** "Bələdiyyələr ölkəmizdə yerli özünüidarəetmə orqanıdır. Bu orqan həm də vətəndaş cəmiyyətinin bir sahəsidir. Bu baxımdan vətəndaşın səsini qazanıb hansısa seçkili orqanda təmsil olunan şəxsin heç bir haqqı yoxdur ki, korrupsiyaya qurşansın. Xalqın etimad göstərdiyi vəzifəli şəxslər nümunə olmalıdırlar. Amma müəyyən bələdiyyə sistemində bəzi vəzifəlilər korrupsiya halları ilə istintaqa cəlb olunurlar. Bu, cəmiyyətimiz üçün böyük faciədir. Belə hallara yol verməmk olmaz. Bunları deməkdə məqsədimiz odur ki, gələcəkdə bütün namizədlər nəticə çıxarsınlar. Yəni onlar özlərinə, nəfslərinə hakim deyillərsə, bəri başdan namizəd olmasınlar".

R.Zeyninin fikrincə, ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirləri genişləndirilməli, şəffaflıq artırılmalı və ictimai nəzarət gücləndirilməlidir: "Vəziyyət o həddə çatdırılmalıdır ki, Azərbaycan regionda və dünyada ən inkişaf etmiş dövlət səviyyəsinə çatsın. Cənab Prezident daim bu istiqamətdə çağırışlar edir. Biz də belə çağırışlara çox həssas və diqqətlə yanaşmalıyıq".

**Yeganə Bayramova**

# "Həbs olunan "jurnalistlər"i ön plana çıxarmaq yanlışdır"




**Zeynal Məmmədli: "Şəhid ailələrinə, az qala, "Oğlun mənə görə şəhid olmayıb" deyən məmurları ikiqat tənqid etməliyik"**

**Son günlər bəzi "jurnalistlərin" haqlarında yazı yazmaq, süjet hazırlamaq adı ilə şəhid valideynlərindən pul almaları barədə məlumat yayılmışdı. Həmin adamlar - Azər Kazımovla Rübabə Vəliyeva inzibati xətalar məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb olunublar.**

Bu, ilk belə hadisə deyil. Ötən günlərdə Sabunçu rayonunda da analoji olay yaşanmışdı: "www.sheffaf.az" xəbər portalının baş redaktorunun 36 nömrəli Şəhər Poliklinikasının baş həkimindən hədə-qorxu ilə pul tələb etməsi barədə rayon prokurorluğuna daxil olan müraciət əsasında araşdırma aparılmış və jurnalistika həvəsinə düşən (ən yaxşı halda belə demək olar) şəxs haqqında həbs-qətimkan tədbiri görülmüşdü.

**Deməli, medianın cəmiyyətdəki nüfuzundan, təsir imkanlarından istifadə geniş yayılıb. "Şərq" olaraq bu barədə media eksperti Zeynal Məmmədli ilə söhbətləşdik:**

**- Məlum hadisələrə münasibətiniz necədir?**

- Şübhəsiz ki, pisdir. Belələrini qınayıram. Amma ümumi yanaşmanı bəyənmədim.

**- Niyə?**

- Belə adamlar jurnalist deyillər. Həm də məgər yalnız şəhid ailəsindən pul almaq olmaz?! Yox. Peşəkar, özünə hörmət edən media adamı, ümumiyyətlə, belə hallardan uzaq durmalıdır. Məsələnin kökünə varmalıyıq. Araşdırmaq lazımdır ki, həmin saxtakarlarla şəhid ailələri arasında yaxınlıq necə yaranıb, valideynlər niyə pul veriblər və s. İstisna etmirəm ki, o "jurnalistlərin" psixoloji problemləri var və pul qazanmağın yolunu bilmirlər. Bunları ön plana çıxarmaq isə tamamilə yanlışdır. Elə isə şəhid ailələrinə, az qala, "Oğlun mənə görə şəhid olmayıb" deyən məmurları ikiqat tənqid etməliyik.

**- Qanunvericilik belə hadisələrin qarşısını almaqda nə qədər effektlidir?**

- Qanunvericiliyi dəyişmək çıxış yolu deyil. Əgər müddəalar formal xarakter daşıyacaqsa, bu, kimsəyə lazım deyil. Elə etmək lazımdır ki, müvafiq maddələrin işləməsi üçün münbit şərait olsun. Hər halda yeni qanunvericilik kimsəni etikalı, vicdanlı etməyəcək.

**- Onda məqsəd nədir?**

- Jurnalistikanın prestijini qaldırmaq. Eyni zamanda həmin qanun mütləq ancaq peşəkar mediaya aid olmalıdır. Sosial medianı bura aid etmək doğru deyil.

**- Son vaxtlar vahid jurnalist vəsiqəsinin yaradılması barədə də danışılır...**

- Bu da ikinci, üçüncü dərəcəli məsələdir. Media-cəmiyyət münasibəti düzgün tənzimlənərsə, səmimi əlaqələr yaranarsa, vahid vəsiqəsiz də fəaliyyət göstərmək mümkündür. Vacib olan xoş niyyətdir.

**Kənan Novruzov**



# Əminlik yaranıb

## "Digər minalı ərazilərin də xəritəsi veriləcək"

**Qarabağ problemimiz artıq həll olunub. İndi qarşımızda duran əsas məsələ minalı ərazilərin xəritəsinin alınmasıdır. Əks halda insanlarımızın ata-baba torpaqlarına qayıtmasında ciddi narahatlıqlar yaşanacaq.**

Şübhəsiz ki, bu istiqamətdə ciddi işlər gedir. Həmin sənədlərin alınması üçün bütün lazımi addımlar atılır.

**Millət vəkili Cavid Osmanov bu barədə "Şərq"ə açıqlamasında prosesin davam etdiyini bildirib:** "Məlum olduğu kimi, qazandığımız zəfərdən sonra sözügedən məsələ bizim əsas prioritetimizə çevrildi. Bütün mümkün platformalarda bu məsələ qaldırılır, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır. Artıq üç rayonun - Ağdam, Füzuli və Zəngilanın xəritələrini almışıq. Bu, Prezident, Ali Baş Komandan İlham Əliyevin diplomatik məharətinin nəticəsidir. Ümumiyyətlə, ən düzgün seçim məhz diplomatik yoldur və proseslər uğurla davam edir. Uğurlu gedişat digər minalı ərazilərin də xəritəsinin verilməsinə əminlik yaradır".

*C.Osmanov, həmçinin Rusiyanın proseslərdəki mövqeyi barədə danışıb:* "Xəritələrin Moskvada olub-olmadığını bilmirəm. Lakin Ermənistanda olduğu dəqiqdir. Odur ki, biz ilk növbədə İrəvana təsir etməliyik. Əgər həqiqətən, xəritələr Kremldə varsa, bu məsələ barədə şimal qonşumuza müraciət etməliyik".

**Kənan**



# Qiymətləri artıran qurumu xalq sevmir

## Millət vəkilləri Tarif Şurasının taleyini yaşamağı istəməzlər

**"Millət vəkilləri Tarif Şurasının səlahiyyətlərini mənimsəmək istəyirlərsə, qanun qəbul etsinlər. Qanun layihəsini də əvvəlcədən ictimaiyyətə təqdim etsinlər, baxaq, sonra müzakirəyə başlasınlar"**

Zəmanətli tariflər istisna olmaqla, bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisi Tarif Şurası tərəfindən müəyyən edilən topdansatış qiymətləri (tarifləri) ilə satılacaq. Bu, Prezident İlham Əliyevin imzaladığı "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" fərmanda əksini tapıb.

Fərmana əsasən, bərpa olunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin ötürülməsi və paylanması ayrıseçkiliyə yol verilmədən Tarif Şurası tərəfindən müəyyən edilmiş tariflərə əsasən təmin ediləcək. Zəmanətli tariflər bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi üçün keçirilən hərrac vasitəsilə, istehsalçı birbaşa cəlbetmə yolu ilə seçildikdə isə istehsalçı ilə Energetika Nazirliyi arasında əldə edilmiş razılıq əsasında müəyyən ediləcək.

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında qeyd edib ki, bərpa olunan enerji mənbələri dedikdə, hidro enerji, dalğa, külək, günəş... enerjisi nəzərdə tutulur.** Müasir dünyamızda inkişaf etmiş ölkələr bərpa olunan enerjilərdən istifadəyə can atır. Azərbaycan da istisna deyil. Bərpa olunan enerji mənbələrindən istifadə üçün ölkəmiz böyük imkanlara sahibdir. Lakin:

- Niyə bu tariflər Tarif Şurası tərəfindən müəyyən edilməlidir? Dünyanın bir sıra ölkələrində iri müəssisələr, holdinq və şirkətlər alternativ enerji mənbələri istehsal edir və qiyməti də istehsalçı özü təyin edir. Hətta adi vətəndaş da alternativ enerji mənbəyi istehsal edə bilər. Kimsə evində əyləşdiyi halda, bir qurğu düzəldər və külək enerjisindən istifadə etməklə yaxınlıqdakı binalara enerji ötürə bilər. Beyninin və əlinin zəhmətini niyə istədiyi qiymətə satmamalıdır?! İstənilən məhsulun qiyməti satıcı və alıcı çox olduqda dəyişir. Enerji sektorunda bir neçə müəssisə elektrik enerjisinin istehsalı ilə məşğuldursa, qiyməti də istehsalçı təyin edir. Amma bizdə vəziyyət fərqlidir. Dövlət inhisarında olan mal və məhsulların qiyməti, buna tənzimlənən qiymətlər də deyilir, bir qurum - Tarif Şurası müəyyən edir. Qiymətlərin müəyyənləşməsi bir qurumun əlində cəmlənib. Bu da dövlətin müəyyənləşdirdiyi istiqamətdir.

Qeyd edək ki, bir müddət əvvəl Milli Məclisin toplantısında bir qrup millət vəkili Tarif Şurasının qiymət siyasətinə etiraz bildirdi, hətta təklif edildi ki, şuranın səlahiyyətləri Milli Məclisə verilsin. İqtisadçı isə hesab edir ki, deputatlar populist çıxışlar etmək əvəzinə konkret qanun layihəsi ortaya qoymalıdırlar:

- Qanun layihələrini hazırlayan millət vəkilləridir. Millət vəkilləri Tarif Şurasının səlahiyyətlərini mənimsəmək istəyirlərsə, qanun qəbul etsinlər. Qanun layihəsini də əvvəlcədən ictimaiyyətə təqdim etsinlər, baxaq, sonra müzakirəyə başlasınlar. Hesab etmirəm ki, Tarif Şurasının səlahiyyətlərinə sahib olmaq deputatlara başucalığı gətirəcək. Qiymətləri artıran qurumu xalq sevmir. Tarif Şurası da qiymətləri xoş günündən, ağ günündən qaldırmır. Deməli, bu qiymət artımı dövlətə lazımdır ki, qaldırılır. Millət vəkilləri Tarif Şurasının taleyini yaşamağı istəməzlər, məncə.

**Məlahət Rzayeva**

**Hər zaman qalmaqallı açıqlamalarla gündəmə gələn Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski ”Komsomolskaya Pravda” radiosunun efirində Dövlət Dumasında (parlamentdə) kosmonavtların, rəssamların, şairlərin, idmançıların və estrada ulduzlarının təmsil olunmasına qarşı çıxıb. O, Dumanın hazırkı tərkibini kəskin şəkildə tənqid edərək, qeyd edib ki, siyasi partiya belə şəxslərin deputatlığa namizəd verilməsinə razı olmamalıdır:**



# Siyasilər Jirinovskini bu dəfə haqlı saydılar

## Yoldan ötən təsadüfi adamların parlamentə düşməsi fəlakətdir

“Bura filarmoniya və ya İdman Nazirliyi deyil”. Məlum olduğu kimi bu ilin sentyabrında Rusiya Dumasına növbəti seçkilər keçiriləcək. Seçkilər həm də proporsional qaydada baş tutacaq. Azərbaycan mediası bizim deputatlardan da Jirinovskinin fikirlərinə münasibət alıblar.

**Millət vəkili Razi Nurullayev ”Yeni Müsavat”a açıqlamasında deyib ki, insanların hüquqlarını məhdudlaşdırmaq olmaz.** Onun sözlərinə görə, kim istəyirsə, qanunvericiliyin tələblərinə uyğun namizədliyini irəli sürüb, deputat ola bilər: ”İnsanlara demək olmaz ki, ”sən aktyor və yaxud müğənnisən, buna görə də sən deputat ola bilməzsən. Ancaq partiyalar özü bununla bağlı qərar qəbul edə bilər ki, namizədlərlə bağlı təqdim etdikləri siyahıda aktyor, şair, rəssam olmasın”.

**Millət vəkili Fazil Mustafa isə deyib ki, Jirinovskinin iradı parlamentdə müəyyən dərəcədə idman, incəsənət sferasından gələn, işini yalnız düymə basmaqla bitmiş hesab edən insanlara qarşı yönəlib və əslində haqlıdır:** ”Parlament yalnız düymə basma yeri deyil, əksinə, siyasi fəallıq yeridir”.

**Jirinovskinin açıqlamasını ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Həsrət rusiyalı siyasətçinin daha çox kloun kimi çıxış etdiyini bildirsə də, bəzi fikirlərinin cəmiyyətdə müzakirələrə səbəb olduğunu deyib.** Ekspertin sözlərinə görə, ümumiyyətlə, ”parlament necə formalaşmalıdır, orada kimlər təmsil olunmalıdır” sualı ətrafında zaman-zaman ciddi müzakirələr aparılıb: ”Azərbaycan Konstitusiyasında yaşı 18-i ötmüş istənilən vətəndaşımız, bəlli istisnalar olmaq şərti ilə deputatlığa iddia edə bilər. Kiminsə buna qarşı çıxmağa haqqı yoxdur, çünki majoritar seçki sistemidir. Fərdi şəkildə kim istəsə namizədliyini irəli sürər. Yaxud, namizədliyi hansısa siyasi partiya, təşəbbüs qrupu tərəfindən irəli sürülər. Amma ”parlament kimlərdən təşkil edilməlidir” məsələsi tamam başqadır. Razi bəy mövcud qanuna əsaslanaraq, fikir səsləndirir və haqlıdır. Fazil Mustafa da haqsız sayılmaz.

**“Bizim parlamentdə də dükan açıb alver edənlər, yaxşı meşə qıranlar az deyil”**

Həqiqətən, Azərbaycan parlamentininin həm indiki, həm də əvvəlki tərkiblərində təsadüfi adamlar çoxdur. Milli Məclisdə parlamentarizmin nə olduğunu anlamayan, deputat fəaliyyətindən uzaq olan, ora düşənədək siyasi fəallığı ilə seçilməyən adamlar ”N” qədərdir. Məhz onların ucbatından parlament ”ölü quruma” çevrilib. Təbii, kiçik istisnalar hər zaman var. Deputatların müəyyən bir qrupu fəaldır, üzdədir, görünürlər və insanlar üçün əlçatandırlar. Amma bu, azlıqdır. Halbuki, parlamentin üzvlərinin hamısı aktiv olmalıdır”.

**A.Həsrət qeyri-siyasi peşə sahiblərinin Milli Məclisə düşməsinə bu cür münasibət bildirib:** ”Doğrudanmı Milli Məclisdə aktyorlar, kosmonavtlar, idmançılar mütləq yer almalıdır?! Məntiqlə düşünsək, sual edərik ki, kosmonavtın parlamentdə nə işi var? Axı kosmonavtın fəaliyyəti qeyri-siyasidir. Öz sahəsində daha çox faydalı ola bilər. Yaxud, qaçış üzrə idman ustası Milli Məclisdə niyə təmsil olunmalıdır? İddianın özü anormaldır. Düzdür, hər kəsin hüququ var ki, namizəd olsun. Amma qaçış ustası, kosmonavt parlamentdə hansı qanunvericiliklə məşğul olacaq, nə iş görəcək? Məncə, yoldan ötən təsadüfi adamların parlamentə düşməsi fəlakətdir. Eyni zamanda hər yoldan ötənin deputatlığa iddialı olması da fəlakətdir. Parlamentə o kəs iddia etməlidir, uzun müddət ictimai-siyasi fəaliyyətlə məşğul olur, təkcə Azərbaycanı deyil, dünyanı öyrənir və s. Kosmonavt, idman ustası deputat seçilsə və sabahı gün təsadüfən Amerika prezidenti ilə üz-üzə gəlsə, çaşdığından özünü itirəcək. Parlamentdə təmsil olunacaq şəxs ABŞ prezidenti ilə təkbətək söhbət edəcək biri olmalıdır. Partiyalar öz namizədlərini müəyyən edərkən bu məqamları mütləq diqqətə almalıdır. Məsələn, Qaradağ rayonunu parlamentdə bir xanım təmsil edir. İnanın, onu nə deputat olanadək tanıyan var idi, nə də seçiləndən sonra kimsə tanıyır. Belə adamları Milli Məclisə doldurmağın mənası nədir?”.

**Analitikin firkincə, bu cür şəxslərin önəmli bir kürsünü zəbt etməyə, dövləti geri çəkməyə haqları çatmır:** ”Parlamentimiz o cür adamlarla doludur. Təsadüfən birinə mikrofon uzadın, nəyisə sual edin, dərhal özlərini itirəcəklər, titrəyəcəklər, səsləri kəsiləcək, boğazları quruyacaq. Deputatlar sadəcə onları danışdıranda deyil, istənilən anda danışmağı bacarmalıdır. Millət vəkilinin ağzından dürr tökülməlidir. Daim ictimai-siyasi proseslərin içində olmalıdır. Parlamentdə bu keyfiyyətlərə malik neçə deputat var? Sonuncu seçkidən bu yana dəfələrlə dediyimi yenə təkrar edirəm - indiki tərkib buraxılmalıdır. 44 günlük Vətən müharibəsində deputatların böyük əksəriyyəti gözə görünmədi. Bu adamlar Prezidentin gecə-gündüz çalışmalarında yer almadılar. Lakin aralarında kənd təsərrüfatını yaxşı bilənlər, dükan açıb alver etməyi bacaranlar, yaxşı meşə qıranlar az deyil. İmkan verək, gedib bildikləri işlə məşğul olsunlar. Bu faktlara görə hardasa Jirinovskiyə haqq qazandırmaq olar”.

**İsmayıl Qocayev**

# Artıq bu işin zarafatı yoxdur



## Tanıdığınız hər narkotika satıcısını anonim olaraq DİN-in elektron hesabına şikayət edin!

**“Son il yarımdır Azərbaycanda uyuşdurucu vasitələr, xüsusilə də metamfetamin törəmələrinin istifadəsi dəfələrlə artıb. Təcili tədbir görmək zamanıdır”.**

Bu barədə tanınmış həkim, tibb üzrə fəlsəfə doktoru Vasif İsmayıl deyib. Həkim bildirib ki, Sumqayıt monitorinqinin nəticələri bu bəlanın sənaye şəhərimizdə dəfələrlə artdığını ortaya qoyub: ”Görüləsi işləri qısa və uzunmüddətli tədbirlər olaraq ikiyə bölmək olar. Vəziyyət cəld tərpənməyi tələb edir. Narkobaronlara əl çatdıracağımıza indilik inanmıram. O gün bir sistem işçisi ilə söhbətim oldu. Mənə hər kəsin Daxili İşlər Nazirliyinin səhifəsində anonim olaraq bildikləri narkotik satıcılarını şikayət etməsini təklif etdi. İndiki vaxtda ən yaxşı çıxış yolunun bu olduğu görünür. Pandemiyada camaat ciddi maddi itkiyə məruz qaldı. Əvvəl bu işə baş qoymayanlar da narkotik satıcılarına çevrildi və minlərlə övladımızı buna bulaşdırdı. Bu işin zarafatı yoxdur artıq. Hamını tanıdığı, şübhələndiyi narkotik satıcısını anonim olaraq DİN hesabına şikayət etməyə səsləyirəm!”.

**İsmayıl**

**Tbilisi meri Kaxa Kaladze Bakıya rəsmi səfər öncəsi jurnalistlərə açıqlama verib. O deyib ki, Bakı və Tbilisi arasında qardaşlaşma haqqında memorandumun imzalanması mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır.**



# Bakı və Tbilisi şəhərləri qardaşlaşdı

## *Gecikmiş olsa da, təşəbbüs təqdir olunmalıdır*

Merin sözlərinə görə, Tbilisinin qardaş şəhərlərinin hazırkı sayı 20-dir: ”Bakı Tbilisinin 21-ci qardaş şəhəri olacaq. Bu, uzun əsrlər boyu Gürcüstan və Azərbaycan arasında mövcud olan münasibətlərin dərinləşdirilməsinə böyük töhfə verəcək, müxtəlif sahələr üzrə əlaqələrimizin daha maraqlı və dostsevər olmasına şərait yaradacaq”.

**Politoloq İlqar Vəlizadə tərəflər arasındakı əlaqə barədə ”Şərq”ə danışıb: ”Əslində bunun üçün gecikmişik. Çünki Azərbaycanla Gürcüstanı bir-birinə yaxınlaşdıran müxtəlif tellər var.** Bizi fərqli irimiqyaslı layihələrdə yan-yana olmuşuq. Həmçinin əlaqələrimizin tarixi kökləri mövcuddur. Azərbaycan-Gürcüstan münasibətlərində paytaxtlar mühüm əhəmiyyət kəsb edir. Çünki məhz paytaxtlar turizm, ticarət əlaqələrində prioritet rol oynayır. Odur ki, hətta gecikmiş olsa belə, bu təşəbbüsü yüksək qiymətləndirirəm”.

**Kənan**



# Üzr istəməklə problem həll olunmur

## Mehriban Zeynalova "Pantural"ın hərəkəti ilə bağlı yeni təklif irəli sürüb

Sosial şəbəkədə "Pantural" kimi tanınan Tural Səfərovun kişi cinsindən olan şəxslərə etdiyi çağırış geniş müzakirələrə səbəb olub. Adıçəkilən şəxs kişilərə xitab edərək ictimai yerlərdə onları şəhvətləndirən qadınlara qarşı seksual xarakterli zorakılıq əlamətləri törətməyə çağırış edib.

Baş verən hadisə Daxili İşlər Nazirliyinin (DİN ) də diqqətindən yayınmayıb. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, o, daha sonra öz səhvini etiraf edib:

**"Pantural" ləqəbli Tural Səfərov polis idarəsinə dəvət olunaraq onunla profilaktik söhbət aparılıb. Yaydığı həmin görüntüdən narazı qalan vətəndaşlardan üzr istəyib".**

T.Səfərov videoda kobud səhv etdiyini və ifadələri düzgün seçməyərək çıxış etdiyini açıqlayıb: "Azərbaycanın namuslu, qeyrətli kişilərindən, xüsusən də xanım və qadınlardan üzr istəyirəm".

Hadisə barədə "Şərq"ə açıqlama verən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova hesab edir ki, kiminsə üzr istəməsi mövcud problemin həllini tapması demək deyil: "Zaman-zaman bu səpkidə fikir bildirən şəxslər çox olub. Lakin sözügedən şəxs bir az dərinə getdi və sanki nəbz yoxlayırlar. Təklif edirəm ki, sosial şəbəkə vasitəsilə qadınlara qarşı zorakılıq təbliğ edən şəxslər 5 min, onları dəstəkləyənlər isə 2 min manat cərimə olunsun. Bununla bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət etmişəm. Təəssüf ki, belə şəxsləri kifayət qədər dəstəkləyənlər var. Ümumiyyətlə, qadına, uşağa, hətta kişiyə zorakılıq təbliğ edənlər ciddi cərimələnməlidir. Yoxsa fərd olaraq hər dəfə kimisə tutsaq, həmin adam üzr istəyəcək, sonra bir başqasını tutduqda o da eyni qaydada üzrxahlıq edəcək. Beləliklə, həmin şəxsləri dəstəkləyənlərin də sayı çoxalacaq. Cəzasızlıq mühiti imkan verəcək ki, kimlərsə istədiyi formada kimisə təhqir etsin və yaxud zorakılıq törətsin".



**"Sosial şəbəkə vasitəsilə qadınlara qarşı zorakılıq təbliğ edən şəxslər 5 min, onları dəstəkləyənlər isə 2 min manat cərimə olunsun"**

**M.Zeynalovanın qənaətincə, kiminsə minnətli üzr istəməyi problemi həll etmir**: "Həmçinin bu cür şəxslərin psixoloji durumu da yoxlanmalıdır. Psixoloq rəy verməlidir ki, bu adamın davranışında təcavüzə meyillilik var, yoxsa yox. Çünki belə çağırış edən şəxsin təcavüzə meyilli olması mümkündür".

**Yeganə Bayramova**



## Azərbaycan Ordusunun hərbçisi intihar edib

### Hadisə qeyri-döyüş şəraitində baş verib

**Azərbaycan Ordusunun hərbi qulluqçusu, baş leytenant Əhmədov Orxan Məmmədağa oğlu ona təhkim olunmuş PM markalı tabel silahından istifadə etməklə iyulun 12-də intihar edib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, hadisə qeyri-döyüş şəraitində baş verib və ilkin ehtimala görə hərbi xidmətlə əlaqəsi yoxdur.

*Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.*

## 133 yeni yoluxma faktı qeydə alınıb

### 71 nəfər sağalıb, 1 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 133 yeni yoluxma faktı qeydə alınıb, 71 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 337 456 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330 873 nəfər müalicə olunaraq sağalıb, 4 988 nəfər vəfat edib, aktiv xəstə sayı 1 595 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 365, ötən müddət ərzində isə ümumilikdə 3 867 916 test aparılıb.

## Batma təhlükəsi ilə üzləşən 7 nəfər xilas olunub



**Dünən batma təhlükəsi ilə üzləşən 7 nəfər xilas olunub.**

Fövqəladə Hallar Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən "Sumqayıt", "Hövsan", "Qızılqum" sularda xilasetmə məntəqələrinin ərazisində və 2 halda məntəqədən kənarda (qeyri-çimərlik ərazi) çimərkən batma təhlükəsi ilə üzləşən 7 nəfər xilas olunub.

## Ata Abdullayevin həbs müddəti uzadıldı



**Səbail rayon Məhkəməsində həbsdə olan bloqer Ata Abdullayevin barəsindəki həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanın təqdimatına baxılıb.**

Prosesdə təqdimat təmin edilib. Məhkəmənin qərarı ilə A. Abdullayev barəsində həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

*Qeyd edək ki, A.Abdullayev bu ilin mart ayında Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. Ona qarşı hədə-qorxu ilə pul tələb etmə maddəsilə ittiham irəli sürülüb və Səbail rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.*

# Artıq Azərbaycanda

## 31 nəfərdə "Delta" ştammı aşkarlandı

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə açıqlama yayıb.**

"Şərq" xəbər verir ki, açıqlamada deyilir:

"Bir ildən uzun müddətdir davam edən SARS-CoV-2 pandemiyası bütün dünyada mühüm səhiyyə problemi olmaqla birlikdə sosial və iqtisadi cəhətdən də ciddi çətinliklər yaratmaqdadır. SARS-CoV-2 infeksiyasına qarşı aparılan tədbirlər, peyvəndlənmənin təşkili və effektivliyinin öyrənilməsi baxımından ölkəmiz dünyada ön sıralardadır. Koronavirusların mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni variantlar bütün dünyada ciddi narahatlıq doğurur. Ölkəmizdə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Genetik Diaqnoz Mərkəzində SARS-CoV-2 virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır.

Aparılan araşdırmaların növbəti mərhələsində son dövrdə ölkə xaricindən gələn şəxslərdən alınmış nümunələrdən 31-də B.1.617 (Delta) variantı, 9-da B.1.1.7 (20 Alpha V1, Britaniya) variantı aşkar olunub.

Dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə olunmuş nəticələrin təhlili bir daha göstərmişdir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Bu gün ölkəmizdəki sabit epidemioloji vəziyyəti aparılan vaksinasiyaya borcluyuq. Bir daha bütün vətəndaşlarımızı vaxt itirmədən vaksinasiya olunmağa çağırırıq.

Unutmamalıyıq ki, vaksinasiya ilə yanaşı, fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi dalar, virusun variantından asılı olmayaraq, xəstəlikdən qorunmağın, dünyada və ölkəmizdə normal həyata qayıtmağın yeganə yoludur.

Pandemiyanın sonunu görmək və gələcəyə sağlam addımlamaq üçün mütləq peyvənd olunaq!"




**"Bir daha bütün vətəndaşlarımızı vaxt itirmədən vaksinasiya olunmağa çağırırıq"**

**Aynurə**

# Əfqanıstan ağ günə çıxmayacaq

## *“Taliban”ın hakimiyyətinə “yaşıl işıq” yandırırlar*



"Taliban" silahlı qruplaşması Əfqanıstanın böyük hissəsinə nəzarəti ələ keçirib. Bu qruplaşma islam dininə əsaslanan siyasi-ideoloji xətt yürütdüyünü iddia edir. Təşkilatın liderləri xaricdəki islam dini liderlərinin fətva və məsləhətlərini qəbul etmədiklərini, "özlərinin dini üləmaları"nın olduğunu və onların hökm, qərar və məsləhətləri ilə fəaliyyət göstərdiklərini bildirirlər.

Onların qənaətincə, xaricdəki islam xadimləri ”siyasətə qulluq edir”, ”kənar qüvvələrə bağlıdırlar”. Bu hal perspektivdə Əfqanıstan üçün problem yarada bilər. Puştu dilində ”Taliban”ın mənası ”tələbələr” deməkdir. Hərəkat 1994-cü ildə Əfqanıstanda yaradılıb. 1996-2001-ci ildə Əfqanıstanı ”Əfqanıstan İslam Əmirliyi” idarə edib. ”Əfqanıstan İslam Əmirliyi”ni diplomatik olaraq Birləşmiş Ərəb Əmirlikləri, Pakistan və Səudiyyə Ərəbistanı tanımışdı. Əgər 2001-ci il sentyabrın 11-dəki məlum terror hadisəsi baş verməsəydi, ABŞ da onu tanıya bilərdi. Ancaq həmin hadisədən sonra ”Taliban” terrorçu təşkilat elan edildi. Bunun ardınca onun terrorçu ”Əl-Qaidə” və İŞİD-lə əlaqələrinə dair xəbərlər yayıldı.

**Politoloq Sədrəddin Soltan bildirib ki, ”Taliban” hakimiyyətdən gedən vaxtdan onunla danışıqlara ara verilməyib. Hətta qruplaşmanın Qətərin paytaxtı Dohada nümayəndəliyi belə fəaliyyət göstərib. Analitikin sözlərinə görə, Donald Tramp ABŞ-da hakimiyyətə gələndən sonra Əfqanıstan məsələsi ştatların gündəliyinin əsas mövzularından olub:** ”Suriyadan çıxacaqlarını elan edən Tramp Əfqanıstanda da qalmayacaqlarını bildirmişdi. Cozef Bayden prezident seçiləndən sonra qoşunlarını Əfqanıstandan çıxarmağa başladı. ABŞ minə yaxın hərbçisini bu ölkədə saxlayacağını bildirir. Bayden Əfqanıstan prezidentinə yardım edəcəklərini vəd edib. Bununla belə, ”əfqan xalqı öz taleyini özü həll etməlidir” ismarıcını da çatdırıb. Son günlər isə İran və Rusiya terrorçu olaraq tanıdıqları qruplaşma ilə siyasi məsələləri də müzakirə ediblər. Hətta ”Taliban”ın onlara vədlər verdiyi gizli deyil. Deməli, regional və beynəlxalq güclər ”Taliban”ın yenidən dirçəlməsinə razılıq veriblər. Başqa sözlə, ABŞ-la başlayan danışıqları Rusiya və İran davam etdirib. Bu həm də perspektivdə vədlərinə əməl etməyəcəyi halda ”Taliban”a qarşı daha genişmiqyaslı aksiyanın başlaya biləcəyini ehtimal etməyə əsas verir”.

*S.Soltan vurğulayıb ki, ”Taliban” Əfqanıstana qonşu dövlətlərə təhlükə yaratmayacaqlarını bildirir, İŞİD-in ölkədə fəaliyyətinə imkan verməyəcəklərini vəd edirlər:* ”Görünür, beynəlxalq ictimaiyyətə yeni və daha humanist ”Taliban” təqdim edilir. Ancaq bu qruplaşmanın hakimiyyətdə olduğu illərdə Əfqanıstandakı vəziyyətlə bağlı yayılan xəbərlər buna şübhə ilə yanaşmağa vadar edir. ”Taliban” Əfqanıstan hakimiyyətinə toxunmayacağını vəd edir. Bununla belə, ölkənin dövlət quruluşu barədə müzakirələr aparacağını bildirir. Belə ehtimal edilir ki, ABŞ ölkədən çıxandan 6 ay - 2 il ərzində Əfqanıstandakı hakimiyyət çökəcək. Yaxud perspektivdə ölkədə vətəndaş müharibəsinin davam edəcəyi istisna olunmur. ”Taliban” hakimiyyətdə olanda Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan neft-qaz kəmərinin tikintisinə də mane olurdu. Qruplaşma bu layihə ilə bağlı hələ ki fikir bildirməyib. ”Taliban” hakimiyyətdə olduğu illərdə ölkənin puştun olmayan əhalisinə qarşı qəddar davranıb. Söhbət daha çox türklərə, yaxud türkdillilərə edilən təzyiqlərdən gedir”.

**Siyasi şərhçiyə görə, ”Taliban”ın belə sürətlə irəliləməsinin səbəblərindən biri vətəndaşların hakimiyyətə inamsızlığıdır:** ”Əfqanıstanı qarışdıranlar indi ya kənara çəkilir, ya da əvvəllər terrorçu olaraq tanıdıqları ”Taliban”ın hakimiyyətə gəlməsinə ”yaşıl işıq” yandırırlar. O zaman belə bir sual yaranır: Əfqanıstana əmin-amanlıq, rifah və sülh gətirə bilməyəcəkdinizsə, insanları bir-birinə niyə qırdırırsınız? Əfqanıstan uzun illərdir ziddiyyətlərin toqquşduğu, problemlərin həll olunmadığı dövlət olaraq qalır. Bu şərait yeni siyasi hadisələrə başlanğıc, regiondakı dəyişikliklər üçün təkan, aparıcı güclərin yeni oyunu da ola bilər. Bütün hallarda Əfqanıstan yenidən çalxalanmağa başlayır”.

**İsmayıl Qocayev**

## Paşinyan Ermənistanda indi ən güclü fiqurdur

### Onun intiqam-cəza tədbirlərinə heç kim mane ola bilməyəcək



**Ermənistanın Sünik (Zəngəzur) bölgəsinin bələdiyyə sədri Suren Oqandjanyan həbs edilib. Bu şəxs seçkilərdə rüşvət verməkdə ittiham olunur.**

Bundan başqa, İrəvan məhkəməsi bir neçə gün əvvəl Mehri şəhərinin meri vəzifəsindən istefa verən Mxitar Zakaryanın həbsi üçün hazırlıqlar gedir. Bundan əvvəl isə Kacaran şəhər meri Manvel Paramazyan saxlanılıb. Onu paytaxt İrəvana gətirərək həbs ediblər. Bəzi iddialara görə, yaxın günlərdə Sünik regionuna aid olan Qafan və Sisian rayonlarında da həbslər aparılacaq. Qeyd edək ki, bu regionda müharibədən sonra Nikol Paşinyanın səfərinə qarşı aksiyalar hazırlanıb. Eləcə də seçkilər zamanı hərbi cani Robert Koçaryanın qələbəsi naminə Sünik bölgə rəhbərləri əllərindən gələni ediblər. İndi baş verənlər isə Nikol Paşinyanın intiqam-cəza tədbirləridir.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə deyib ki, Ermənistanda növbədənkənar parlament seçkilərində Sünik vilayətinin bir çox icmaları konkret olaraq sabiq prezident Robert Kocaryanı dəstəkləyirdi. Hətta Nikol Paşinyanın Sünikə gəlişinə qarşı sabotajlar edirdi:** ”Paşinyana qarşı çıxanlara qarşı həbslərin həyata keçirilməsi gözlənilən idi. Çünki Paşinyan özünə qarşı belə davranışları heç vaxt sükutla qəbul etmir. Hazırda bir cox sahələrdə həbslər gedir. Generallar və yüksək rütbəli zabitlər ordudan uzaqlaşdırılır. Polis və məhkəmə sistemində də Paşinyana yaxın olmayan kadrların həbsi gözlənilir. Bu həbsləri həyata keçirməklə Paşinyan dövlət strukturlarında fəaliyyət göstərən ”Qarabağ klanı”nın üzvlərini zərərləşdirir. Proses davam edəcək və nə Rusiya, nə də ”Qarabağ klanı” mane ola biləcək. Çünki seçkilərdə mandat qazanmış Paşinyan hazırda ən güclü fiqurdur. Bundan sonra ”Qarabağ klanı” vilayətlərdə dayaqlarını itirəcək və tədricən zəifləyəcək”.

**İsmayıl Qocayev**

# Almaniyadan azərbaycanlıların kütləvi deportasiyası gözlənilir

### Ekspertlər hesab edir ki, mühacirlərin geri qayıtması Azərbaycan iqtisadiyyatına əlavə problemlər yaratmayacaq

Almaniyada qanunsuz yaşayan və sığınacaq tələbi rədd edilən Azərbaycan vətəndaşlarının növbəti kütləvi deportasiyası gözlənilir. Ötən gün 30-a yaxın azərbaycanlı Münhen hava limanı yaxınlığındakı miqrasiya idarəsi tabeliyində olan, deportasiya ediləcək şəxslərin müvəqqəti saxlanıldığı mərkəzə gətiriliblər.

Adları deportasiya ediləcək şəxslərin siyahısında olan 10-dan çox şəxsin də axtarışları aparılır. Münhen polisi Azərbaycan vətəndaşlarının qaldıqları mənzillərə baş çəksə də, deportasiya ediləcək şəxsləri orada tapa bilməyiblər.

Məlumatda bildirilir ki, bu dəfə deportasiya ediləcək şəxslər 2016-2019-cu illərdə Almaniyaya gələrək bu ölkədən sığınacaq istəyənlər, indiyə kimi möhlət hüququ ilə yaşayanlar və ölkədə qalma müddəti bitən şəxslərdir.

Xatırladaq ki, cari il yanvar ayından indiyədək Almaniyada yaşayan Azərbaycan vətəndaşlarının 6 dəfə kütləvi deportasiyası həyata keçirilib.

**İqtisadçı-alim Nazim Bəydəmirli mövcud durumun iqtisadiyyatımıza təsirləri və siyasi məsələ ilə bağlı olub-olmadığına dair fikirlərini ”Şərq”lə bölüşüb. Onun sözlərinə görə, hər bir ölkənin miqrasiya qanunvericiliyi həmin ölkə vətəndaşlarının marağına xidmət etməlidir:** ”Təbii ki, beynəlxalq konvensiyalara uyğun olaraq müəyyən ölkələrdə siyasi səbəbdən sığınacaq almış şəxslərin də hüquqları var. Nə üçün vətəndaşlarımız Avropa məkanlarına daha çox üz tuturlar? Çünki insan hüquq və azadlıqları orada daha çox qorunur, yaşam şəraiti yüksəkdir. Bu baxımdan insanlar daha yaxşı şəraitdə yaşamağa üstünlük verirlər. Hətta bölgələrimizdə qeydiyyatda olan şəxslərin yarısı Bakı və Bakı ətrafında məskunlaşıblar. Bu da yaşam şəraitinin daha yüksək olması ilə bağlıdır.




Ona görə də bütün hökumətlər vətəndaşların yaxşı yaşaması üçün çaba göstərməlidirlər. Sosial müavinətlərin yüksək olması, qaçqın və məcburi köçkünlərin tez iş tapması üçün Almaniya cəlbedici ölkədir”.

**N.Bəydəmirli hesab edir ki, mühacirlərin geri qayıtması Azərbaycan iqtisadiyyatına əlavə problemlər yaratmayacaq:**

”Ancaq həmin insanların nə üçün xarici ölkəyə getmə səbəbi aradan qaldırılmalıdır ki, vətəndaşlarımız burada yaşasınlar, iqtisadiyyatımıza qatqı versinlər. Hətta Rusiyaya iqtisadi mühacirətə gedənlərin sayı olduqca çoxdur. Rusiyadan da müxtəlif yollarla daha yaxşı ölkələrə gedirlər. Bu durumun qarşısı qanuni və təşviq yolları ilə alınmalıdır. Həmin vətəndaşları qınamağın tərəfdarı deyiləm. Belə praktikadan imtina edilməlidir”.

**Yeganə Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Əhali gərək gözüaçıq olsun

*Qanunsuz ət kəsimi və ticarəti ilə məşğul olanlar fırıldaqçılardır*

Qanunsuz fəaliyyətlərin qarşısının alınması, əhaliyə keyfiyyətli məhsulların satışının təmini məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi satış məntəqələri, mağaza və marketlərdə vaxtaşırı monitorinqlər həyata keçirir. Bu günlərdə AQTA paytaxtda növbəti monitorinqini qanunsuz ət kəsimi məntəqələrində keçirib.

Monitorinqlər zamanı sanitar-gigiyenik norma və qaydalara əməl olunmadan fəaliyyət göstərən heyvan kəsimi və ət satışı ilə məşğul olan 5 məntəqə aşkar edilib. Məlum olub ki, bu məntəqələr dəfələrlə rəsmi xəbərdarlıq edilməsinə və inzibati tədbirlər görülməsinə baxmayaraq, qanunsuz fəaliyyətlərini davam etdirir. Əhalinin sağlamlığı və məlumatlılıq baxımından bu məntəqələrin harada yerləşdiyini qeyd edirik. Bu məntəqələrin 5-i də paytaxtın Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşir. Müxtəlif ünvanlarda. "10 May" küçəsi, "Asəf Zeynallı" küçəsi və sair. Qeyd etməliyik ki, Agentliyin monitorinqləri davamlı xarakterdədir. Və Qida Təhlükəsizliyi Agentliyi qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması üçün qanunla müəyyən olunmuş qaydada ciddi tədbirlər həyata keçirir. Şübhə yoxdur ki, AQTA-nın fəaliyyətində əhalinin qida təhlükəsizliyinin təmini əsas istiqamətdir. Agentlik məhz bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 fevral 2017-ci il tarixli fərmanı əsasında yaradılıb. Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə, həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Agentlik tərəfindən indiyədək aparılan monitorinqlər zamanı qanunsuz heyvan kəsimi ilə məşğul olan kəsim məntəqələri aşkar edilir, qanunsuz fəaliyyət göstərənlərə, həmçinin sanitar-gigiyenik qaydalara əməl etməyənlərə qarşı qanunamüvafiq tədbir görülür. İndiyədək paytaxtın Nizami, Binəqədi və Yasamal, N.Nərimanov, Suraxanı rayonları, Yeni Günəşli (AB, D yaşayış massivi ərazisində), Badamdar qəsəbəsində, eyni zamanda regionlarda da - İsmayıllı, Yevlax, Bərdə rayonları ərazisində də analoji monitorinqlər keçirilib. Bu zaman qanunsuz heyvan kəsimi məntəqələrinin sahiblərinə ciddi xəbərdarlıq edilib və yol kənarlarında qanunsuz olaraq quraşdırılan, qida təhlükəsizliyi tələblərinə uyğun olmayan bir sıra kəsim qurğuları icra hakimiyyəti orqanlarının nümayəndələrinin iştirakı ilə sökülərək aradan qaldırılıb. Agentlik heyvan kəsimi sahəsində mövcud tələblərə uyğun fəaliyyət göstərmək istəyən sahibkarları müasir ət kəsimi məntəqələrinin yaradılmasında iştirak etməyə də dəvət edir. Nəzərə alsaq ki, bir neçə gündən sonra müqəddəs Qurban bayramıdır, ət kəsimi və satışı məntəqələrində qanunun tələblərinə və sanitar-gigiyenik qaydalara əməl edilməsi zəruri xarakter alır.

**Məsələ ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, qanunsuz ət kəsimi və satışı məntəqələrinin aşkarlanması ilk növbədə əhalinin - istehlakçının sağlamlığı baxımından vacibdir:**




"Satışa çıxarılmış məhsulun keyfiyyətinə zəmanətin olmaması ictimaiyyət üçün təhlükədir. Bundan dövlət də zərər çəkir, vətəndaş da"

- Qanunsuz ət kəsimi, satışı, bu zaman gigiyenik normalara riayət edilməməsi, satışa çıxarılmış məhsulun keyfiyyətinə zəmanətin olmaması ictimaiyyət üçün təhlükədir. Bundan dövlət də zərər çəkir, vətəndaş da. İndiyədək görün, nə qədər mənşəyi naməlum ət məhsulları aşkarlanıb, satışının qarşısı alınıb. Belə məlumatlar tez-tez yayılır, ölü heyvan əti, hətta at ətinin bazara çıxarılmasına cəhdlər olur. Avtomobillərə yüklənən ət parçalarından, heyvan skeletindən də görünür ki, kəsilib doğranmış heyvan əhalinin qidalanmada adətən istifadə etdiyi mal-qara əti deyil. Bilirsiz, burada əsas məsələ, satışa çıxarılan ət məhsullarının mənşəyinin gizli saxlanması, başqa, saxta ad altında istehlakçıya təqdim olunmasıdır. At ətini mal, dana əti kimi satmağa cəhd edirlər. Yaxud da kolbasa, sosiska sexlərinə, bəzi restoran və kafelərə, yeməkxanalara satırlar. Bunlar qanunsuz ət kəsimi və ticarəti ilə məşğul olan fırıldaqçılardır. Əhali də gərək gözüaçıq olsun, yaxşını pisdən ayıra bilsin. Və qarşılaşdıqları neqativ hallarla bağlı aidiyyəti qurumlara məlumat versinlər. Keyfiyyətli ərzaqla qidalanmaq hər kəsin təbii və konstitusion hüququdur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Susduqca çoxalırlar

Azərbaycan mediası hər kəsin etimad göstərdiyi məkana çevrilməlidir

"Jurnalistikanın verdiyi hüquq və imkanlardan şantaj və dələduzluq yolu ilə başqalarından pul qoparmaq üçün istifadə edən şəxslər, artıq əməllərinin qarşılığını almağa başlayıblar". Bu barədə "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib. Baş redaktor bildirib ki, şəhid ailələrindən pul qoparmaq kimi heç ölçüyə uyğun gəlməyən, mənəviyyatsızlığın dibi sayılacaq bir davranış sərgiləyən - Azər Kərimov və Rübabə Vəliyeva adlı talançılar barəsində məhkəmə müvafiq olaraq iki və bir ay olmaqla inzibati həbs növündə inzibati tənbeh seçib:



"Haqqında həbs-qətimkan tədbiri seçilən başqa bir "media mənsubu" isə özünü "www.azinfo.tv" və www.sheffaf.az xəbər portalının "baş redaktoru" kimi təqdim edən Namik Əmrahovdur. Bu qondarma baş redaktor Sabunçu rayonu, 36 saylı şəhər poliklinikasının baş həkimi Ramidə İbrahimovaya özünü sözügedən "xəbər portalları"nın rəhbəri kimi təqdim etməklə, barəsində kütləvi informasiya vasitələrində rüsvayedici məlumatlar yayacağı ilə hədələyərək 2018-ci ildən etibarən ondan dəfələrlə ümumilikdə 2 min manat məbləğində pul tələb edərək alıb. Şübhəsiz ki, Namik Əhmədov öz layiqli cəzasını alacaq. Amma Sabunçu rayon Prokurorluğunun Namik Əhmədovun əməli ilə bağlı yaydığı məlumatda diqqəti çəkən bir məqam var. Bu da jurnalistikadan öz çirkin əməlləri üçün istifadə edən Əhmədovun 2018-ci ildən, yəni 3 il ərzində baş həkimi hədələməklə ondan, ümumilikdə 2 min manat pul almasıdır. Ramidə İbrahimova 3 il ərzində Namik Əhmədovun hədələrinə "dözüb". Hüquq-mühafizə orqanlarına jurnalistikanın verdiyi hüquq və imkanlardan suiistifadə edən bu şəxslə bağlı məlumat verməyib. Çox güman ki, Namik Əhmədovun əməllərinin qurbanı olan başqa şəxslər də var və onlar susmağa davam edirlər. Jurnalistikadan şantaj və dələduzluq yolu ilə başqalarından pul qoparmaq üçün istifadə edən şəxslərin sayının gündən-günə artmasının səbəblərindən biri də, şübhəsiz ki, bu susqunluqdur".

*E.Mirzəbəyli vurğulayıb ki, tutduğu vəzifədən, statusundan asılı olmayaraq, ölkənin informasiya məkanının cinayətkarlığa meyilli şəxslərdən təmizlənməsini arzulayan hər kəs qarşılaşdığı neqativ əməllərlə bağlı hüquq-mühafizə orqanlarına dərhal məlumat verməlidir:* "Onlar Azərbaycan mediasının hər kəsin etimad göstərəcəyi bir məkana çevrilməsinə öz töhfəsini verməlidir. Digər tərəfdən, belə halların mümkün qədər məhdudlaşdırılması üçün hüquqi mexanizmlər təkmilləşdirilməlidir. Hər yoldan ötənin "media resursu" yaradaraq, jurnalistikanı urvatdan salmasına, informasiya məkanının cinayət yuvasına çevrilməsinə imkan verilməməlidir".

**İsmayıl**

# Hər erkən evlənən qızları ər evində şahzadə həyatı gözləmir



## Cərimə ilə canını qurtaracağını bilən hər kəs xətalı addımdan çəkinməz

Sosial şəbəkələrdə Şəkinin Kiçik Dəhnə kəndində 15 yaşlı qızın ərə verilməsi ilə bağlı videogörüntülər yayılıb. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupunun baş inspektoru, polis baş leytenantı Mahir Məsimov bildirib ki, yayılan görüntülər əsasında Şəhər Rayon Polis Şöbəsində dərhal araşdırmalara başlanılıb. Araşdırma zamanı 2005-ci il təvəllüdlü M.H ilə 1991-ci il təvəllüdlü M.S-nin evləndirilməsi faktı öz təsdiqini tapıb. Yeniyetmənin valideynləri polisə dəvət olunub və onların izahatları alınıb.

Təəssüf ki, hələ də qızlarımızın erkən yaşda ərə verilməsi hallarına rast gəlirik. Valideynlərin polisə izahat üçün aparılması əslində çox yaxşı haldır ki, bəlkə bu yolla digərləri də ağıllanıb dərs götürərlər.

**Hadisəni "Şərq"ə dəyərləndirən tanınmış jurnalist İlhamə Rəsulova bildirib ki, adətən ailələr qızlarını tez ərə verməklə hansısa yükdən qurtulduqlarını düşünürlər:** "Birini ittiham etməzdən öncə yadıma qədim bir rəvayət düşür. Ədaləti ilə ad çıxarmış bir hökmdar yaşlanır və taxtını vəliəhdinə buraxmazdan öncə onu sınamaq istəyir. Tapşırır ki, bir neçə gün xalqdan gələn şikayətləri o qəbul etsin, qərarlar çıxarsın. Özü də oturur oğlunun yanında sakitcə dinləyir. Bir gün iki nəfər dava ilə hüzura gəlir. Birisi deyir ki, bu adam mənim 10 qoyunumu oğurlayıb. Hökmdarın oğlu dinləyib dərhal qərar verir ki, həmin şəxs 10 qoyunu geri versin. Bunlar çıxıb gedəndən sonra atasından adil olub-olmadığını soruşunca adil hökmdar deyir ki, böyük yanlış etdin. Birincisi, ikinci şikayətçiyə söz haqqı vermədin, ikincisi də ki, o oğurluq etmişsə belə, nə üçün oğurladığının səbəbini araşdırmadın. Bəlkə, onu buna sövq edən dərin səbəbləri var idi. Ümumiyyətlə, baş verən bütün hadisələrin bir səbəbi var, o cümlədən 15 yaşlı qızın ərə verilməsinin də dərin kökləri olmamış deyil. İnanmıram ki, o qız hansısa yaxşı təmin olunmuş bir ailədə yaşayır. Bu yaşda qızı ərə verən ailə adətən onun imkanlı bir ailədə yaşayıb gələcəyinə gün ağlamasını istəyirlər. Onu hansısa bir sənət, peşə sahibi olmadan ərə verirlərsə, evdə yiyən ağızın birinin azalmasını istəyirlər. Əlbəttə, bunlar ehtimallardır".

**İ.Rəsulovanın sözlərinə görə, düşüncə tərzimiz dəyişilməlidir:** "Azyaşlı qız alıb təmiz bir gəlinə sahib olmaqla onu öz tərbiyəsi altında böyütmək istəyən oğlan evi anlayışı da var. Cərimə etmək ən asan yoldur. Cərimə ilə canını qurtaracağını bilən hər kəs xətalı addımdan çəkinməz. Düşünürəm ki, ölkəmizdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin işi daha fərqli qurulmalıdır. Problemi olan uşaqlar, yeniyetmələr qaynar xətlə istədikləri vaxt zəng edib dəstək ala bilməlidirlər. Avropa ölkələrində olduğu kimi buna qanunlar çərçivəsində dərhal reaksiya verilməlidir. 15 yaşlı yeniyetmənin ürəyi, ağlı yaşının gərəkcəsi ilə fərqli döyünür, fərqli düşünür. Ona ailənin nə olduğu başa salınmayıb, qulağına nağıllar oxumaqla ərə verirlər. Ailəni qurmaq asan, qorumaq çətindir. 15 yaşında evlənmək həyatla döyüşə bir neçə il erkən başlamaq deməkdir. Hər nə qədər xoşbəxt olun diləkləri ilə ərə verilsələr də, qızlar bilməlidirlər ki, onları ər evində şahzadə həyatı yox, bir ailənin qayğılarını öz əllərinə almaq gözləyir. Buna hazırdırmı? Və bunu bilən valideyn gözünü yumub övladını bu çətinliyə öz əliylə itələyirsə, sadəcə kamil düşünə bilmir".

**Yeganə Bayramova**



## Qarabağdakı kitabxanalar üçün kitab toplanılır

**İyulun 12-də Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə keçirdiyi kitabtoplama kampaniyasına AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Hüseyn Cavidin Ev Muzeyi də qoşulub.**

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Hüseyn Cavidin Ev Muzeyinin əməkdaşları "İşğaldan azad olunan bölgələrdəki kitabxanaların fondu üçün kitabtoplama kampaniyası"nın dağıdılmış kitabxanaların bərpa edilməsi istiqamətində vacib bir addım olduğunu qeyd ediblər.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu 174 adda 471 nüsxə kitabı, Hüseyn Cavidin Ev Muzeyi isə 22 adda 65 nüsxə kitabı işğaldan azad olunan bölgələrdəki kitabxanaların fonduna hədiyyə edib.

Məlumat üçün bildirək ki, işğal olunmuş ərazilərdə dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilib. İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri - muzeylər, kitabxanalar, mədəni-maarif müəssisələri xüsusi qəddarlıqla məhv edilib.

# Tələbat böyükdür, amma zərəri dəhşətlidir

## *Enerji içkilərinin qarşısını inzibati yolla almaq mümkün olmayacaq*



Azərbaycanda enerji içkiləri satan şirkətlərin qanunvericilik hallarını pozduğu ortaya çıxıb. Nəticədə haqsız rəqabət hallarının qarşısının alınması məqsədi ilə enerji içkiləri bazarında aparılan araşdırmalar zamanı 4 sahibkar barəsində iş qaldırılıb. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən məlumat verilib.

Dövlət Xidməti tərəfindən "A+CO" ASC, "Berg Energy" MMC, "NPG Azərbaycan" MMC və "Veysəloğlu" MMC barədə antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işlər qaldırılıb.

Qeyd edilib ki, "Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları"na əsasən, alkoqolsuz içkilərin tərkibində insan orqanizminin mərkəzi sinir sistemini stimullaşdırmaq xüsusiyyətinə və antisedativ təsirə malik olan kofein, taurin, qlükoronolakton, amin turşuları, B qrupu vitaminlər və s. kimi maddələrdən və ya bitki ekstraktlarından ən azı ikisi mövcud olduğu təqdirdə yaxud həmin maddələrdən yalnız kofein olduqda və miqdarı 15 mq/100 ml-dan artıq olarsa, həmin alkoqolsuz içkilər enerji içkisi hesab edilir.

**Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında söyləyib ki, birlik olaraq uzun illərdir enerji içkilərinin mövcudluğuna dair qəti mübarizə aparırlar:** "Enerji içkiləri barəsində dəfələrlə ciddi mübahisələrimiz yaranıb. Bəziləri sübut etməyə çalışıblar ki, bu içkilər bir sıra ölkədə istifadə olunur və zərərli deyil. Hər kəs bilir ki, silah insan öldürmək üçündür və onlar da satılır. Kapitalizm qanunlarında insan sağlamlığına doğru yönəlmiş çağırışların çoxusu saxta və yalançıdır. Azərbaycanda da enerji içkilərinə müəyyən tələblər var. Dünyadan gələn reklamlar belə içkilərin sayını artırdı. Təbii ki, bu da insan sağlamlığına təhdiddir. Hətta ölkəmizdəki yerli istehsalçılar da enerji içkisini istehsal edirlər. Bu məhsul istehsalçıları özləri etiketdə yazırlar ki, uşaqlara, hamilə qadınlara və zəif şəxslərə zərərlidir. Hər kəs bilir ki, zəiflərə ziyan vuran içki güclüyə də xeyir etməz. Təəssüf ki, dünya bazarına inteqrasiya etmiş Azərbaycan bazarında enerji içkilərinə böyük tələbat yaranıb. Belə məhsulların tərkibində olan öyrəşdirici maddələr insanlarda asılılıq yaradır".

**E.Hüseynov vurğulayıb ki, AİİB bir il yarım öncə Vergilər Nazirliyinə enerji içkilərinin gömrük rüsumlarının qaldırılmasına dair müraciət edib:** "İstəyimizə də nail olduq. Çalışırıq ki, bu içkilərə əlçatanlıq azalsın. Çox yaxşı haldır ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) enerji içkilərinin tərkibindəki öyrəşdirici maddələrin azaldılması üçün standartlar hazırladı və bunun tətbiqini yerinə yetirdi. Hazırda ölkəmizə gətirilən və yerli istehsal edilən enerji içkilərinin tərkibindəki öyrəşdirici maddələrin miqdarı Avropa və digər ölkələrdəkindən xeyli aşağıdır. Bu, çox yaxşı haldır. Lakin enerji içkiləri hər zaman zərərlidir. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti məhsul adının enerji içkisi qoyulub, lakin tərkibinin heç də enerji içkisinə uyğun olmadığı üçün müəyyən cərimələr tətbiq edib. Arzu edərdim ki, enerji içkisi adı ilə məhsul alınsın, ancaq tərkibində təhlükəli maddələr olmasın. Enerji içkisi istehsalçıları vətəndaşları aldadan jestlər edirlər. Ona görə də müvafiq dövlət orqanları onlarla iş aparır. AİİB tərəfdarıdır ki, idman yarışlarının sponsorluğunu enerji içkiləri şirkəti etməsinlər. Düşünürəm ki, mütləq "Reklam haqqında" qanuna dəyişiklik aparmaq lazımdır. Amma belə içkilərin qarşısını almaq çox çətindir. Müəyyən qüvvələr "Tələb varsa təklif də var" adı ilə təhlükəli məhsulları təbliğ edirlər. Ölkəmizdə bu problemin qarşısını inzibati yolla almaq mümkün olmayacaq. Məhsulun tərkibinin dəyişdirilib zərərsizləşdirilməsi ilə bağlı işlər görülsə, bəlkə insanları təhlükədən qorumaq mümkün oldu".

**Yeganə Bayramova**

# “Mən belə kişilərə nifrət edirəm”

"Elgizlə izlə" verilişinə gələn Məmməd adlı yaşlı kişi həyat yoldaşının onu dilənməyə məcbur etdiyini söyləyib. O, həmçinin 10 dəfədən çox evləndiyini iddia edib.



*Elgiz 10 dəfədən artıq evlənib boşanan adama ağıl verdi*

”Şərq” xəbər verir ki, bu hadisə aparıcı Elgiz Əkbəri qəzəbləndirib. E.Əkbər həmin kişiyə irad bildirib: ”İnsanın bir əqli qüsuru olanda dilənçilik edirlər ki, insanların yazığı gəlib, ona pul versin. Sizin kimi 2 metr boyu olan bir kişinin dilənçilik etməsini gözümüzün önündə canlandıraq.

Sizə kim pul verəcək? Adamlar sizi tənqid və təhqir edərlər. Mən yolda hündür boylu, pəhləvan bir kişinin dilləndiyini görsəm, onu acılayaram.

Deyərəm, utanmırsan? Bunlar evləniblər, beş dəqiqə sonra xanımın necə bir insan olduğunu bilib. Dünyada belə bir olay yoxdur. Dəfələrlə evlənmisiniz. Onlardan biri, ikisi, üçü pis olar. Yəni 10 qadının hamısı pis idi?! Siz qadınlara özünüzü yıxmısınız. İnsan bir, iki, üç dəfə səhv edər. Bəlkə də 15 qadınla evlənmisiniz.

Siz necə adamsınız?! Ağsaqqalsınız, saçınız ağarıb, sizdən yaşca balacayam. Amma nəsə deməyə ixtiyarım var. Çünki kifayət qədər həyat təcrübəsinə sahibəm. İnanın ki, sizin hərəkətləriniz çox qeyri-adidir.

Hansısa çərçivəyə sığmır. Neçə qadının qəlbini qırımısınız. Evlənib boşanmısınız, bu oyuncaqdır?! Sonuncu xanımınız deyib ki, havayı çörək yoxdur, get, dilən. Bu söyləyib ki, qazanmıram, işləmirəm, o da əcəb edib, halal olsun. Mən belə kişilərə nifrət edirəm.

Bizdə hüquq çərçivəsində qadın-kişi bərabərliyi mövcuddur. Lakin mənən baxanda qadın zərif məxluqdur. Bu kişi qadınlarla evlənib, görüb ki, maddi problemlər yaranır, aradan çıxıb. Belə şey olar?! Ayıb deyil?”.

**Samirə**

## Ağacın dibindən cadu çıxıb

Klarnet ifaçısının ölməsini arzulayıblar



**Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu ”Onun sirri” proqramındakı açıqlaması ilə diqqət çəkib.**

”Şərq” xəbər verir ki, o, başına gələn bir hadisədən danışıb: ”Caduya inanıram. Bir dəfə həyətimdən tapmışam. Özü də ölməyim üçün etmişdilər. Bahalı ağacım var idi. Öz-özünə quruyurdu. Dərmanla və sairlə də düzəlmədi. Bağbana dedim ki, ağacın dibini qaz. Mən də yanındaydım. Bağban cadunu tapdı, dedi ki, Hüseyn müəllim, bu nədir? Düyünlənmiş sap idi, onu açdıq. İçindən qurğuşun, yağ, paltarımın bir hissəsi çıxdı. Onu niyə edirdiniz?”.

**Samirə**

## Nazilə Səfərlinin oğlu yeni maşın alıb



**Şairə Nazilə Səfərli instaqram paylaşımı ilə diqqət çəkib.**

”Şərq”in məlumatına görə, o, oğlunun yeni maşınının fotosunu profilində yerləşdirib. O, posta bir qeyd də yazıb: ”Ailəmizin yeni maşınıdır. Oğlum, sağlıqla sür. Qızlardan macal olsa, ananı da gəzdir”.

**Samirə**

## Nigar Londonda karantinə alındı





**Müğənni Nigar Camal karantinə alınıb. İngiltərəyə gedən sənətçi pandemiya qaydalarına görə 10 gün küçəyə çıxa bilməz.**

Bunla bağlı Nigar özü məlumat verib. O, paylaşımında ”Çox xoşbəxtəm. Londona gələn kimi 10 gün karantində olməliyik. Heç yerə çıxmaq olmaz. Buna görə də onlayn təhsil alıram” sözlərini yazıb.

*Qeyd edək ki, Nigarın övladları Londonda yaşayır. Buna görə də o, tez-tez İngiltərəyə gedib-gəlir.*

# Qalmaqal səngiməyib

*Roza Zərgərli və Afət Fərmanqızı arasında qarşılıqlı ittihamlar daha da kəskinləşir*





Müğənni Roza Zərgərli "Onda görüşək" proqramında həmkarı Afət Fərmanqızı ilə qalmaqalından danışıb. "Şərq" xəbər verir ki, o, sözügedən verilişdə bunları söyləyib:

”Mən ona pis söz deməmişəm. Söylədim ki, Afət yaxşı qızdır, Flora Kərimovanı görəndə qucaqlayıb barışar. Canlı yayımda bunları danışırdım. Bir nəfər yazdı ki, İlhamə xanım olsa, kimsə at oynada bilməzdi. Mən də qayıtdım ki, doğrudur, çünki o sağ olanda iki xalq artisti qalmaqal edirdi, bizə ehtiyac qalmırdı. Bir az zarafatla söz dedim. Bu məsələni saytlar yenidən gündəmə gətiriblər. Afət deyib ki, Rozanın bir kişi ilə şəklini paylaşdım. Burdan hər kəsə elan edirəm. Mən cavab verəndə hamısı susur. Təkrar nəsə deyə bilmirlər. Montaj edilmiş fotoya gəlincə... Bir jurnalist var idi. O, bu fotonu paylaşdırmışdı, mənə layiq olmayan fikirlər yazdırmışdı. Mən də onu məhkəməyə verdim, fotonu ekspertizaya göndərdilər. Məlum oldu ki, bu, montajdır, məhkəməni qazandım. Başqa ifaçılar kimi filankəsi uddum, deyib açıqlamadım. Oğlana dedim ki, bilmədiyin, araşdırmadığın məsələdən yazma. Kiminsə şəxsi həyatına müdaxilə etmək olmaz. Hamısı bunu bayraq ediblər. Məhkəmənin qərarı ilə o fotodan istifadə edənlər və fikir bildirənlər həmin jurnalist kimi təzminat ödəyəcəklər. Ona görə ağıllı olun”.

*Qeyd edək ki, iki müğənni arasındakı qalmaqal Xalq artisti Flora Kərmovaya görə yaşanıb. A.Fərmanqızı Nəsiminin qəzəlinə mahnı oxuduqdan sonra xalq artisti onu tənqid edib. Bu mübahisəyə R.Zərgərli də daxil olub. O, F.Kərimovanı dəstəkləyib. Yaxın günlərdə məsələ yenidən gündəmə gəlib.*

*A.Fərmanqızı o vaxt R.Zərgərli ona irad bildirəndə həmkarının sözügedən fotosunu paylaşdığını söyləyib.*

**Samirə**

## Yenə oğlundan yazdı...

İbrahim Borçalının yaraları sağalmır



**Müğənni İbrahim Borçalı instaqram paylaşımı ilə hər kəsi kövrəldib.**

”Şərq” xəbər verir ki, o, oğlunun məzarı başından fotosunu paylaşıb. İ.Borçalı paylaşıma bir qeyd də əlavə edib: ”İyulun 20-də ölümündən bir keçir. Zaman nə tez ötdü. Sanki bir ay vaxt keçib”.

*Qeyd edək ki, sənətçinin oğlu Rəhim ötən il avtomobil qəzasında dünyasını dəyişib.*

**Samirə**

# Vüqar Biləcərili qanqrenadan ölməyib?

*Mərhumun xanımı şübhələrini dilə gətirib*



Ötən ilin avqust ayında qəfil dünyasını dəyişən meyxana ustası Vüqar Paşayevlə (Biləcərili) bağlı şok iddia irəli sürülüb.

Mərhumun 12 il dini nikahlı xanımı olan Samirə Zeynalova ”Lent.az”a müsahibəsində meyxanaçının ölüm səbəbinə inanmadığını söyləyib. O, Vüqar Biləcərilinin qanqrenadan deyil, zəhərlənərək dünyasını dəyişdiyini bildirib. S.Zeynalova bunun kiminsə əməli olduğunu xüsusi vurğulayıb. Lakin onu ölümündən qısa müddət əvvəlmi, yaxud da daha öncədənmi zəhərlədikləri haqda nəsə bilmədiyini deyib. Meyxanaçının sevgilisi bu pisliyi kim tərəfindən, nəyə görə törədildiyini bilmədiyini açıqlayıb. Samirə xanım söz ustasının qardaşı Kamran Paşayevə şikayət edib, məsələnin araşdırılmasını təklif edib. O isə deyib ki, bu olayı ilahi ədalətin öhdəsinə buraxıb.

**V.Paşayevin yaxın dostu, həmkarı Orxan Əzimov (Lökbatanlı) ”Şərq”ə mövcud durumdan xəbərdar olmadığını söyləyib:**

”Bu barədə bir söz deyə bilmərəm. Allah Vüqara rəhmət eləsin, yeri behişt olsun. O mənim dostum, qardaşım idi. Kiminsə nədənsə şübhəsinin olduğundan məlumatım yoxdur. Nəsə söyləyə bilmərəm. Samirə xanımı da Vüqarın sağlığından bəri tanıyıram”.

**Samirə**

# Təkrar hərracların keçirilməsinə dair elanlar

Xaçmaz rayon İcra Şöbəsinin 29.04.2021-ci il tarixli, 306/20 saylı sifarişi ilə, Xaçmaz rayonu, Çarxı kəndində yerləşən 0.77 ha, 2.31 ha, 4.59 və 0.6088 ha torpaq sahəsinə dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri satış qiyməti olan 76.568 (yetmiş altı min beş yüz altmış səkkiz) manatdan 30% aşağı, yəni 53.597,6 (əlli üç min beş yüz doxsan yeddi manat altmış qəpik) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 2.679,88 (iki min altı yüz yetmiş doqquz manat səksən səkkiz qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 20.04.2021-ci il tarixli, 5200-61526/21-15-26 saylı sifarişi ilə, 2 ədəd əyari 750, çəkisi 15.9 qram, üzərindəki qaşların dəyəri 4 karat olan sırğaya dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin sırğa satış qiyməti olan 10.822 (on min səkkiz yüz iyirmi iki) ABŞ dollarından 30% aşağı, yəni 7.575,4 (yeddi min beş yüz yetmiş beş dollar qırx sent) ABŞ dollarına olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 757,54 (yeddi yüz əlli yeddi dollar əlli dörd sent) ABŞ dolları miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 30.04.2021-ci il tarixli, 62/44 saylı sifarişi ilə, Sumqayıt şəh., Novxanı bağ massivi, 0,0350 hektar olan 4801D bağ sahəsinə dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin bağ sahəsi satış qiyməti olan 19.040 (on doqquz min qırx) manatdan 30% aşağı, yəni 13.328 (on üç min üç yüz iyirmi səkkiz) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 666,4 (altı yüz altmış altı manat qırx qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Xaçmaz rayon İcra Şöbəsinin 18 may 2021-ci il tarixli, 355/20 saylı sifarişi ilə, Xaçmaz rayonu, Köhnə-Xaçmaz kəndində yerləşən 0.80 ha, 0.20 ha, 0.10 ha və 0.39 ha kənd təsərrüfatı təyinatlı

və Xaçmaz rayonu, Müqtədir qəsəbəsində yerləşən 0.06 ha həyətyanı torpaq sahələrinə dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri satış qiyməti olan (0.80 ha torpaq sahəsi) - 14.400 (on dörd min dörd yüz) manat; (0.20 ha) - 8.640 (səkkiz min altı yüz qırx); (0.10 ha) - 7.200 (yeddi min iki yüz); (0.39 ha) - 17.280 (on yeddi min iki yüz səksən); (0.06 ha) - 2.160 (iki min bir yüz altmış) manatdan 30% aşağı, yəni: (0.80 ha torpaq sahəsi) - 10.080 (on min səksən); (0.20 ha) - 6.048 (altı min qırx səkkiz) manata; (0.10 ha) - 5.040 (beş min qırx) manata; (0.39 ha) - 12.096 (on iki min doxsan altı) manata; (0.06 ha) - 1.512 (bir min beş yüz on iki) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, (0.80 ha torpaq sahəsi) - 504 (beş yüz dörd); (0.20 ha) - 302 (üç yüz iki); (0.10 ha) - 252 (iki yüz əlli iki); (0.39 ha) - 604,8 (altı yüz dörd manat səksən qəpik); (0.06 ha) - 75,6 (yetmiş beş manat altmış qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. **1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); **2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

**6)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**7)** şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**8)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

**9)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

**10)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

**11)** Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

*rəsmi internet saytı: e-herrac.com*

# Təkrar hərracların keçirilməsinə dair elanlar

Şəmkir rayon İcra İdarəsinin 02.06.2021-ci il tarixli, 1701/2021-12 saylı sifarişi ilə, Şəmkir şəhəri, Ü.Hacıbəyov küçəsi, 2-ci döngə, 4 saylı ünvanda yerləşən 0,05 ha torpaq sahəsi və 3 otaqdan, mətbəx, zal, hamam və tualetdən ibarət, ümumi sahəsi 119,1 kv.m. olan 1 (bir) mərtəbəli, orta təmirli fərdi yaşayış evinə dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin fərdi yaşayış evi satış qiyməti olan 54.000 (əlli dörd min) manatdan 20% aşağı, yəni 43.200 (qırx üç min iki yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 2.160 (iki min bir yüz altmış) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 144355/2019-12 saylı sifarişi ilə, Şəmkir şəhərində yerləşən 0,8281 ha torpaq sahəsinə dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 3.150 (üç min bir yüz əlli) manatdan 20% aşağı, yəni 2.520 (iki min beş yüz iyirmi) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 126 (bir yüz iyirmi altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 7185-240154/2018-15-27 saylı, 10.06.2021-ci il tarixli sifarişi ilə, 1 (bir) ədəd balans aparatı (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd yağ dəyişən aparat (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd tozsoran dərmanvurma aparatı ilə birgə (istifadə olunmuş vəziyyətdə), 3 (üç) ədəd başaşkçı təkər qaldırıcı (istifadə olunmuş vəziyyətdə), 2 (iki) ədəd təkər açan (istifadə olunmuş vəziyyətdə), 1 (bir ədəd) yuyucu aparat (işləmir), 1 (bir) ədəd kompressor (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd təkər sökən (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd avtomobil qaldırıcıya (istifadə olunmuş vəziyyətdə) dair 13 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar satış qiyməti olan, ümumilikdə 8.550 (səkkiz min beş yüz əlli) manatdan 20% aşağı, yəni 6.840 (altı min səkkiz yüz qırx) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 26 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 684 (altı yüz səksən dörd) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir. Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. **1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

**2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

**6)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**7)** şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**8)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

**9)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

**10)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

**11)** Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

*rəsmi internet saytı: e-herrac.com*

# Dünyanın ən axmaq planı...

*Tıxaca dözməyib özünü körpüdən çaya atdı*




(Əvvəli səh: 16-da)

Adamın axtarışları və çaydan çıxarılması saatlarla sürüb. Jennings həyatda qala bildiyi üçün özünü bəxtəvər hesab etdiyini və nə qədər şanslı biri olduğunu fərq etdiyini deyib:

"Suyun altına dalmağa başladım və bir neçə dəfə, az qala boğulacaqdım. Həqiqətən də, həyatımın sonunun yaxınlaşdığını düşündüm. O an həyatımdakı hər kəsi bağışladım və hər kəsdən bağışlanmaq dilədim. Qarışıq duyğulardı. Qəza səbəbindən 2 saatdan çox idi ki, tıxacda qalmışdıq. Birdən beynimə ağlagəlməz bir fikir gəldi. Körpünün üstünə çıxmaq, çaya tullanıb sahilə üzmək və ordan da irəlidəki dostumun maşınına minib yola davam etmək. Çaya baxdım, səviyyəsi hündür görünmürdü. Amma körpüdən atlananda bunun nə qədər səfeh bir hərəkət olduğunu anladım. Bu, dünyadakı, bəkə də ən axmaq plan idi". Jennings bir neçə saat çayda üzüb, yorulub. Hər dəfə suyun dibinə enmək təhlükəsi yaşadıqda arxası üstə uzanıb, əlləri ilə suyu itələyərək, sahilə çıxmağa çalışıb. Sonunda kiçik bir adaya çıxa bilib. Xilasedicilər onu tapıb və sahilə çıxarıb. Körpüdən tullandığına görə barəsində cinayət işi açılıb. Jennings "etiraf edirəm, bunu etməməliydim. Amma körpüdən tullandıqdan sonra hər nə etdimsə, həyatda qalmaq üçün etdim", deyib. Jenningsin bu çılğın hərəkəti həm tıxacda dayananlar tərəfindən, həm də körpünün üzərindəki təhlükəsizlik kameraları tərəfindən qeydə alınıb. Sosial şəbəkələrdə yayılan video izləyici rekordu qırıb.

**Məlahət**

## "Nar"ın Baş icraçı direktoru:

"Üstün xidmət müştərilər qarşısında əsas vədimiz və öhdəliyimizdir"



**"Nar"ın əsas hədəfi Azərbaycanın müştəriyönümlü mobil operatoru olmaqdır. Üstün xidmət müştərilər qarşısında əsas vədimiz və öhdəliyimizdir".**

Bunu "Azerfon" MMC-nin Baş icraçı direktoru Qunnar Panke Trend İnformasiya Agentliyinə müsahibəsində bildirib. Onun sözlərinə görə, mobil operatorun məqsədi müştərilərüçün həm sərfəli, həm də keyfiyyətli xidmət təqdim etməkdir. Bunun üçün mobil operator xidmət və satış mərkəzlərini yeniləməklə tamamilə yeni müştəri xidməti təcrübəsi və abunəçilərin real ehtiyaclarını qarşılayan məhsullar təqdim edir.

**Q.Panke qeyd edib ki, ardıcıl olaraq 2 il"Nar"ın müştəri məmnuniyyəti indeksi üzrə lider olması da təsdiqləyir ki, abunəçilər mobil operatorun təkliflərini qiymətləndirir və ona güvənirlər:** "Müştəriyönümlülük konsepsiyası bizi bütün prioritetlərimizə doğru istiqamətləndirir, xüsusilə təkliflərimizi hazırlamaqda, müştərilərimiz ilə qarşılıqlı münasibət qurmaqda bizi müşayiət edir. Müştəri ehtiyaclarını ən yaxşı anlayan mobil operator kimi bazarda lider mövqeyimizi qorumağa çalışırıq".

"Nar"ın bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarının sayını artırması nəticəsində 2021-ci ilin birinci rübü ərzində 4G istifadəçilərinin sayı 32% artıb. Q.Panke əlavə edib ki, işğaldan azad edilmiş əraziləri müasir və dayanıqlı şəbəkə ilə təmin etmək mobil operatorun prioritetlərindən biridir. Artıq Şuşa, Cəbrayıl, Hadrut qəsəbəsi də daxil olmaqla Xocavənd keyfiyyətli və kəsintisiz mobil şəbəkə ilə əhatə olunub.

## Peyvənd vurdurmaq üçün 7 min insanla növbə gözlədi




**Hollivud ulduzu Rassel Krou Sidneydə Covid-19 əleyhinə peyvənd vurdurub.**

Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, sənətçi bu haqda tvitter hesabında yazıb. O bildirib ki, bunun üçün 7 min insanın yer aldığı növbədə dayanıb. "Bazar günümü necə keçirdim?" deyə, Rassel paylaşdığı fotoda qeyde dib. O bildirib ki, sağlamlığı üçün buna məcburdur.

## Evli olduğunu unudan Kadirin görüntüləri qınandı



**"Aşkın tarifi" adlı serialda baş rolları canlandıran Kadir Doğulu və Serra Arıtürkin sosial mediada açdıqları canlı yayım xoş qarşılanmayıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, izləyicilər tərəf müqabili olan cütlüyün səmimi münasibətini qınayıb, Kadirə evli olduğunu xatırladadıblar. Hətta müğənni Çağla da öz hesabında buna münasibət bildirib: "Bu nədir, evli bir kişi serialdan kənar bir ortamda sevgi hərəkətləri, sırf izlənsin deyə. Əsəb oldum. Nə oldu böyük sevdana?!"

*Qeyd edək ki, Kadir Doğulu aktrisa Neslihan Atagüllə evlidir.*

## "Google" 500 milyon cərimələndi



**Fransanın antiinhisar tənzimləyicisi "Google" şirkətini 500 milyon avro dəyərində cərimələyib.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, qurum "Google" şirkətinin müəllif hüquqlarını heçə saydığını aşkarlayıb. Məhkəmə tərəfindən müəyyən olunan qadağaların yenidən pozulması ilə cərimə tətbiq edilib. Eyni zamanda, "Google" KİV-lərə ödəniş planını təqdim etməsə, şirkətə hər gün əlavə 900 min avro cərimə yazılacaq.

*Qeyd edək ki, "Google" istifadə etdiyi kontentlərin müqabilində şirkətlərlə müqavilə bağlayır. Lakin öhdəliklərini yerinə yetirməməsi səbəbindən bəzi saytlar şikayətçi olub. Bu səbəbdən "Google" həmin kütləvi informasiya vasitələrinə ödəniş planı təqdim etməlidir. Əks halda cərimə daha da artacaq.*

## Ana olmaq istəyən müğənni 16 kiloqram kökəlib



**Türkiyəli müğənni Aylin Coşkun 2 ildir evli olduğu Volkan Aslanla uşaq sahibi olmaq istədiyini açıqlayıb.**

Axşam.az xəbər verir ki, müğənni süni mayalanmaya baş vurduqlarını və müalicə olunduğu müddətdə 16 kiloqram aldığını bildirib: "Olmur, hazırda çalışırıq, 16 kilo aldım. Hər kəsdən dua etməsini xahiş edirəm. Müalicələr davam edir. Xərçəng xəstələri ilə eyni streslə gedirmiş süni mayalanma müalicəsi. 1,5 ildir çalışıram". Aylin ana ola bilməyəcəyi təqdirdə 10 pişik alacağını söyləyib.

*Qeyd edək ki, 44 yaşlı müğənni 17 illik sevgisi Volkan Aslanla iki il əvvəl ailə həyatı qurub.*

## Məşhur aktrisa Mətin Hara ilə eşq yaşayır

Bəs Adriana Lima necə oldu?



**"Bir Zamanlar Çukurova" serialında rol alan Hilal Altınbilək Mətin Hara ilə eşq yaşayır.**

lent.az xəbər verir ki, məşhur aktrisa Metin Hara ilə Bozcaadada birlikdə görüntülənib. Onlar münasibətləri barədə hələ ki, heç bir açıqlama verməyiblər. Hilalın Mətinin keçmiş sevgilisi Adriana Lima ilə olan oxşarlığı diqqətdən yayınmayıb.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1240



# Çağırış edildi, zərərlidir

“Akvariumdakı qızıl balıqlarınızı göl və çaylara buraxmayın”

**ABŞ-ın Minnesota əyalətinin Barnsvill şəhərinin səlahiyyətliləri qızıl akvarium balıqlarını çaylara və göllərə atmamaları üçün xalqa xəbərdarlıq edib.**

”Şərq” türk mediasına istinadən bildirir ki, Keller gölünü işğal edən futbol topu ölçüsündə qızıl balıqları toplayan səlahiyyətlilər bu heyvanların ekosistemi zədələdiklərini söyləyiblər.

**Barnsvill şəhərinin sosial media hesabında xalqa çağırış edilib:** ”Xahiş edirik evdə saxladıqlarınız akvariumdakı qızıl balıqlarınızı göl və çaylara buraxmayın. Düşündüyünüzdən daha çox böyüyürlər, dibdəki çöküntüləri pozur və bitkiləri kökündən çıxarırlar. Eyni zamanda suyun keyfiyyətsiz olmasına səbəb olurlar.

**Yeganə**

# Dünyanın ən axmaq planı...

Tıxaca dözməyib özünü körpüdən çaya atdı



**Zəncirləmə qəza səbəbindən tıxacda qalan avtomobil sahibləri ağlasığmaz hadisəyə şahidlik edib.**

Avtomobillər tıxacda dayandığı vaxt bir nəfər sürətlə qaçaraq körpünün üzərindən çaya tullanıb. Bu çay isə timsahların məskəni kimi məşhurdur. Hadisə ABŞ-ın Luiziana ştatında yaşanıb. ”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, 26 yaşlı Jimmy İvan Jennings ştatlararası 10-cu yolun üzərində inşa edilmiş körpüdən çaya tullanıb.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Qadın mühafizə əməkdaşının barmağını qopardı

Əcnəbi qadınlar həddindən çox içkili olduqları üçün gecə klubuna buraxılmayıb



**İstanbulun Beyoğlu ərazisində gecə klubuna girə bilməyən üç qadından biri mühafizə əməkdaşının barmağını dişləyərək qoparıb.**

Bu barədə ”Şərq” ”Posta”ya istinadən xəbər verir. Sonra qadın və yoldaşları döyülüblər. Həmin anlar kameralara düşüb.

İddialara görə, əcnəbi qadınlar həddindən çox içkili olduqları üçün içəri buraxılmayıblar. Tərəflər arasında mübahisə mühafizə əməkdaşlarının zor tətbiq etməsinə səbəb olub. Barmağı qoparılan oğlana tibbi yardım göstərilib. Qadın isə hakim qarşısına çıxarılıb.

**Kənan**

# 80 min dollar...

Rihanna malikanəsini kirayə verir



**Müğənni Rihanna 13 milyon 800 min dollara aldığı malikanəsini kirayə verir.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, 33 yaşlı müğənninin ”Beverly Hills”dəki villasının kirayə haqqı 80 min dollardır. 700 kvadratmetrlik evdə 7 yataq, 7 vanna otağı, hovuz, spa və idman salonu var.



# 65 ildir yuyunmur

*85 yaşlı kişinin bütün bədənini kir qatı örtüb*





**İranın Fərəşbənd bölgəsindəki bir kənddə yaşayan 85 yaşlı Amoo Hacı heyrətləndirici bir rekorda sahibdir.**

”Şərq” ”Ntv.com”a istinadən xəbər verir ki, A.Hacı 65 ildir yuyunmur.

Yaşlı kişi, gigiyenik olmayan bir mühitdə gigiyenik olmayan bir həyat sürməyə davam edir. Bədəni kir qatı ilə örtülmüş kişi 65 ildir ki, təraş da olmur. Onun yuyunmamasının arxasında tibbi bir zərurət və ya keçmiş bir travmanın olmadığı, qocanın sadəcə belə yaşamağa üstünlük verdiyi bildirilir.



**Yeganə Bayramova**

# Evlərin damında heyvan saxlayırlar

Qurbanlıq malı damdan kranla endirdilər







**Qurban bayramı yaxınlaşdıqca sosial mediada rəngarəng, bəzən xoş, bəzən də üzücü xəbərlər yer almaqdadı.**

Qurbanlıqı heyvana şəfqətlə, mərhəmətlə yanaşanlar da var, qeyri-insani davranış sərgiləyənlər də. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, Pakistanın Karaçi şəhərində isə qəribə hal yaşanıb. Şəhər sakinlərindən biri evin damında bəslədiyi qurbanlıq heyvanı bazara aparmaq üçün qaldırıcı kranla aşağı endirib. Onu deyək ki, Karaçidə heyvanların evlərin damında bəslənməsi son vaxtlar adi hal alıb. Çünki şəhərdə hədsiz sıxlıq səbəbindən heyvanları bəsləmək üçün ərazilər yox səviyyəsindədir. Gəlbedici görünüşə malik heyvanı qarnının altından möhkəm bağlayıb ipləri kranın qarmağına keçiriblər. Kran heyvanı yavaş-yavaş yerə endirməyə başlayıb. Gülməli burasıdır ki, qurbanlığın sahibi heyvanın belinə minib, kranla aşağı enib. Özünə əziyyət verib pilləkənlərlə aşağı düşməyib. Binanın qarşısına toplaşan yüzlərlə insan heyvanın kranla aşağı endirilməsini maraqla izləyib.

**Məlahət**



# Avstraliyada qeyri-adi ev

Gündüzlər çiçək kimi açılır, gecələr isə avtomatik bağlanır

**Avstraliyanın ”Casey Brown Architecture” memarlıq studiyası ev sahiblərinin gəlişi ilə biri çiçək kimi açılan iki ayrı mini qüllədən ibarət bənzərsiz kiçik evin tikintisini başa çatdırıb.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, ”Permanent Camping-2” adlanan evin əsas üstünlüklərindən biri də əsas qüllənin açıldıqda evin sahəsini ikiqat artıran mobil divarlara malik olmasıdır. Qaldırıcı mexanizmlərinin köməyi ilə qüllənin 3 divarı qaldırılaraq pəncərələr açılır və ”qutu” tam bir yaz evinə çevrilir. Qeyri-adi ev gündüzlər çiçək kimi açılır, gecələr isə avtomatik bağlanır. ”Ləçəkləri” bağlayarkən ev, həm də pis hava şəraitindən, vəhşi heyvanlardan və ya insanlardan etibarlı şəkildə qorunur.